# TİBB İŞÇİLƏRİNİ SEVİNDİRƏN TƏŞƏBBÜS

TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 212 tibb işçisinin əməkhaqqı artırılır.

TƏBİB-in icraçı direktoru Anar Bayramov bildirib ki, əməkhaqqı artırılan tibb işçilərindən 36 041 nəfəri orta, 20 367 nəfəri kiçik tibb heyəti, 8 675 nəfəri ambulator tibbi xidmət göstərən həkimlər, 7 129 nəfəri isə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, habelə regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlərdir.

SƏHİFƏ 5-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

5 SENTYABR ŞƏNBƏ 2026 № 33 (4284) Qiyməti - 60 qəpik www.kaspi.az







## BİŞKEKDƏ BAKI-İRƏVAN DİALOQU

Bişkek görüşü ikitərəfli format çərçivəsində sülh gündəliyinə yeni stimul verir. Bu görüş gələcəkdə atılacaq addımların koordinasiyasını təşkil etmək, iqtisadi əlaqələri genişləndirmək baxımından mühüm əhəmiyyətə malikdir.

SƏHİFƏ 4-də



## AVROPANI ÇƏTİN QIŞ GÖZLƏYİR

Hazırda qitənin qaz anbarları yalnız 61% doldurulub. Anbarların doluluq səviyyəsinin aşağı həddə qalması və geosiyasi qarşıdurmalar Avropa ölkələrində qaz təminatının sabitliyi ilə bağlı narahatlıqları artırıb.

SƏHİFƏ 7-də



## KÖRPƏ ARZUSUNDAKI BÜDCƏ QORXUSU

Uşaq saxlanılması və ailə planlaması məsələsində görünməyən əlavə xərclər ailə büdcəsinə kəskin təsir edir. Uşaq böyüdərkən çəkilən xərclər yalnız standart qida və geyimlə bitmir.

SƏHİFƏ 12-də

### QLOBAL ÇAĞIRIŞLAR FONUNDA BEYNƏLXALQ DÜZƏN

# DİPLOMATİYAMIZ ŞƏT PLATFORMASINDA



ŞƏT-Azərbaycan əməkdaşlığı özünün dinamikliyi ilə seçilir. Regional bağlantıların, Orta Dəhliz amilinin əhəmiyyətinin artdığı bir zamanda bu əməkdaşlıq hər iki tərəfin maraqları ilə tam uzlaşır.

### CƏNUBİ QAFQAZ BÖLGƏSİ SÜLH ZONASI KİMİ

Prezident İlham Əliyev çıxışı zamanı mövcud qlobal çağırışlar fonunda beynəlxalq düzənin əksər iştirakçılarını narahat edən bir sıra mühüm məqamlara toxunub. Dövlət başçısı qeyd edib ki, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi bu gün sülh zonasına çevrilməkdədir.

### SAMMİT ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR

Prezidentin keçirdiyi ikitərəfli görüşlər də diqqət çəkir. Qazaxıstan, İran, Türkiyə prezidentləri ilə aparılan müzakirələr regional əməkdaşlıq mexanizmlərinin ŞƏT platformasında dəstəklənməsi, sülh imkanları baxımından önəm daşıyır.

SƏHİFƏ 3-də

### XARİCDƏ TƏHSİLİN MÜASİR REALLIĞI

## ASAN QƏBUL, ÇƏTİN NƏTİCƏ



Xaricdə təhsil almaq bir çox gənc üçün arzudan daha çox, gələcəyə qoyulan investisiya kimidir. Lakin xarici universitetə qəbul olmaq təkcə arzu ilə olmur. Ölkə və universitet seçimi, qəbul tələbləri, dil sertifikatı, sənədlərin hazırlanması, viza, təhsil və yaşayış xərcləri kimi bir-birindən fərqli mərhələlər arzulayanın qarşısına çoxsaylı suallar çıxarır.

SƏHİFƏ 8-9-da



## CƏNUBİ QAFQAZDA YENİ ERANIN BAŞLANĞICI

Bakıda BMTMM və “LİNKS Europe” Fondunun təşkilatçılığı ilə “Avropa-Azərbaycan münasibətləri: Tarixi təcrübənin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətləri” adlı dəyirmi masa keçirilib.

SƏHİFƏ 2-də



## ŞENGEN VİZASI DA RƏQƏMSALLAŞIR

Avropa İttifaqı Şengen vizası sistemini rəqəmsal formata keçirməyə hazırlaşır. Yeni sistem tam tətbiq edildikdən sonra pasportlardakı ənənəvi viza stikerlərinin yerini rəqəmsal vizalar alacaq.

SƏHİFƏ 6-da



## “GLOBAL MEDİA GROUP”DAN NÖVBƏTİ HUMANİTAR AKSİYA

Korporativ sosial məsuliyyət prinsiplərini fəaliyyətinin əsas istiqaməti kimi qəbul edən “Global Media Group” cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən humanitar layihələrə dəstəyini ardıcıl olaraq davam etdirir.

SƏHİFƏ 2-də



“SOCAR Green”dən BESS açıqlaması

SƏHİFƏ 5-də



Güclü sellərə nə dərəcədə hazırıq?

SƏHİFƏ 10-da



Baha ət, ucuz kolbasa

SƏHİFƏ 11-də



Şəkərin “şirin” dövrü bitir

SƏHİFƏ 13-də



“Qızıl Top” uğrunda amansız mübarizə

SƏHİFƏ 16-da



# İlham Əliyev Corcia Melonini təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın Baş naziri Corcia Melonini ən uzun müddət vəzifədə olması münasibətilə təbrik edib. Bu barədə İlham Əliyevin “X” sosial media hesabında paylaşım edilib.
“İtaliya Respublikasının tarixində ən uzun müddət Baş nazir vəzifəsində çalışan şəxs olması münasibətilə İtaliyanın Baş naziri Corcia Meloniyə səmimi təbriklərimi çatdırıram. Bu tarixi nailiyyət onun güclü liderliyini, siyasi qətiyyətini və İtaliya xalqının ona olan etimadını əks etdirir. Baş nazir Meloninin Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsində şəxsi rolunu və dəyərli töhfəsini yüksək qiymətləndirirəm. Əminəm ki, dostluğumuz və qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dərinləşəcək və genişlənəcək”, - təbrikdə deyilir.




# “Global Media Group”dan növbəti humanitar aksiya

Korporativ sosial məsuliyyət prinsiplərini fəaliyyətinin əsas istiqaməti kimi qəbul edən “Global Media Group” cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən humanitar layihələrə dəstəyini ardıcıl olaraq davam etdirir. Media şirkətlər qrupu bu siyasətin tərkib hissəsi olaraq, Səhiyyə Nazirliyinin Respublika Qan Bankı tərəfindən icra edilən “Talassemiyasız həyat naminə” proqramına yenidən öz töhfəsini verib. Ötən ilin dekabrında keçirilən analoji təşəbbüsün davamı olaraq, 4 sentyabr 2026-cı il tarixində “Report” İnformasiya Agentliyinin ofisində növbəti könüllü qanvermə aksiyası reallaşdırılıb. Tədbirdə qrupa daxil olan media şirkətlərinin əməkdaşları fəal iştirak edərək bu xeyirxah təşəbbüsə qoşulublar.
Fəaliyyətində yalnız media sahəsindəki layihələrlə kifayətlənməyən “Global Media Group” bu kimi xeyriyyəçilik addımları ilə ictimai rifaha töhfə vermək əzmini bir daha nümayiş etdirib. Şirkət analoji sosial və humanitar təşəbbüslərin gələcəkdə də mütəmadi olaraq keçirilməsini planlaşdırır.

# CƏNUBİ QAFQAZDA YENİ ERANIN BAŞLANĞICI



**Bakıda BMTMM və “LİNKS Europe” Fondunun təşkilatçılığı ilə keçirilən “Avropa-Azərbaycan münasibətləri: Tarixi təcrübənin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətləri” mövzusunda dəyirmi masada maraqlı müzakirələr baş tutub.**

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və “LİNKS Europe” Fondunun təşkilatçılığı ilə “Avropa-Azərbaycan münasibətləri: Tarixi təcrübənin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətləri” mövzusunda dəyirmi masa keçirilib.

### “SÜLH PROSESİNİ POZMAĞA ÇALIŞAN QÜVVƏLƏR VAR”

BMTMM İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Cənubi Qafqazın geosiyasi mənzərəsi əhəmiyyətli dərəcədə dəyişib. İlk növbədə, bu, Azərbaycan-Ermənistan münaqişəsinin geridə qalması və bölgədə yaranan sülh mühiti ilə bağlıdır. Lakin ehtiyatlı olmalıyıq. Çünki həm Avropa İttifaqından (Aİ) kənarda, həm də Aİ daxilində sülh prosesini pozmağa çalışan qüvvələr var. O qeyd edib ki, sülhü pozmağa çalışan qüvvələrin geniş lobbiçilik şəbəkələri və “ictimai vəkillik” adlandırılan mexanizmləri mövcuddur. “Müxtəlif Avropa təsisatlarında və bəzi hallarda media qurumlarında bu cür hallarla həlә də qarşılaşırıq. Bəzi şəxslər humanitar məsələlər pərdəsi altında Qarabağ mövzusunu yenidən gündəmə gətirməyə çalışırlar. Halbuki hər iki ölkənin, Azərbaycanın və Ermənistanın liderləri davamlı sülhün və barışığın təmin olunması niyyətlərini dəfələrlə vurğulayıblar”, - deyə İdarə Heyətinin sədri bildirib.




Fərid Şəfiyev digər mühüm məsələnin nəqliyyat, logistika və Orta Dəhlizlə bağlı olduğuna diqqət çəkərək deyib: “Cənubi Qafqazın şimal və cənub perimetrlərində iki qaynar münaqişənin mövcudluğunu nəzərə alsaq, yükdaşımalar və nəqliyyat üçün təhlükəsiz marşrutların əhəmiyyəti daha da artır. Bilirəm ki, Avropa İttifaqı da Mərkəzi Asiya və Azərbaycanla tərəfdaşlıq çərçivəsində bu istiqamətdə daha fəal əməkdaşlıq edəcək”.




### “BU, HƏM DƏ AVROPA ÜÇÜN YENİ BİR ERADIR”

“LINKS Europe” Fondunun direktoru Dennis Sammut deyib ki, Avropa-Azərbaycan münasibətlərini təhlil etməyin və perspektivlərini müzakirə etməyin tam vaxtıdır və bu, mühüm əhəmiyyət kəsb edir. O vurğulayıb ki, 30 il ərzində Qarabağ məsələsi təkcə siyasi gündəmi deyil, həm də insanların düşüncəsini zəbt edib. İndi isə Qarabağ Azərbaycana qayıdıb və Ermənistanla sülh perspektivi var. Bu, Azərbaycan-Ermənistan münasibətlərində, eləcə də bütövlükdə Cənubi Qafqazda yeni eranın başlanğıcıdır.
“Xüsusilə vurğulamaq istəyirəm ki, bu, həm də Avropa üçün yeni bir eradır. Çünki Aİ-Azərbaycan münasibətləri uzun illər ərzində düzgün və adekvat dialoqun olmamasından əziyyət çəkib. Buna görə də tərəflər arasında bir sıra yanlış təsəvvürlər formalaşıb. Avropa Parlamentindən və bəzi üzv dövlətlərin müəyyən dairələrindən Azərbaycanla bağlı səslənən bəzi bəyanatlar isə hər zaman aydın və bitərəf mövqeni əks etdirməyib. Düşünürəm ki, artıq yeni mərhələyə qədəm qoymaq, qarşılıqlı anlaşmaya, etimada və daha konstruktiv dialoqa əsaslanan münasibətlərin qurulması üçün yeni imkanları dəyərləndirmək lazımdır”, - deyə Dennis Sammut bildirib.

## QARŞILIQLI MARAQLARA ƏSASLANAN TƏRƏFDAŞLIQ

Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç deyib ki, illər keçdikcə Azərbaycan Aİ-nin mühüm və etibarlı enerji tərəfdaşına çevrilib: “Biz Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olmaqdan qürur duyuruq”. O qeyd edib ki, son illər artan qarşılıqlı səfərlər isə münasibətlərin yalnız enerji sahəsi ilə məhdudlaşmadığını, eyni zamanda, bir çox sahədə əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini göstərir. “Aİ-Azərbaycan münasibətlərini düşünərkən mənim ağlıma gələn söz “dinamik” oldu. Bu, kifayət qədər diplomatik ifadədir, lakin münasibətlərimizdə dinamizmin, həqiqətən də mövcud olduğunu düşünürəm. Bu dinamizm əməkdaşlığımızın yeni sahələrə doğru genişlənməsində və qarşılıqlı əlaqələrin intensivləşməsində özünü göstərir. Düşünürəm ki, bu, müəyyən mənada, münasibətlərimizin sürətlənməsi deməkdir. Əminəm ki, qarşıdakı dövrdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, ticarət, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yeni imkanlar yaranacaq. Bu baxımdan, mövcud potensialdan səmərəli istifadə etmək və qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlığı daha da gücləndirmək vacibdir”, - deyə Mariyana Kuyundziç bildirib.

# AZƏRBAYCAN DİPLOMATİYASI ŞƏT PLATFORMASINDA

ŞƏT-Azərbaycan əməkdaşlığı özünün dinamikliyi ilə seçilir. Regional bağlantıların, Orta Dəhliz amilinin əhəmiyyətinin artdığı bir zamanda bu əməkdaşlıq hər iki tərəfin maraqları ilə tam uzlaşır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən növbəti sammitində iştirak edib. Dövlət başçısı "ŞƏT plyus" formatında görüşdə çıxış edib.

**ORTA GÜC STATUSU**

Azərbaycanın beynəlxalq səviyyədə orta güc statusunun tanınması rəsmi Bakının qlobal diplomatik strategiyasının əsasını təşkil edir. Bu, özünü həm regional, həm də daha böyük coğrafi miqyasda büruzə verir. Çoxvektorlu xarici siyasət kursu, Qoşulmama Hərəkatı, D8, C6, İKT, TDT kimi beynəlxalq təşkilatlarda fəal iştirak, müstəqil xarici siyasət və onun arxasında dayanan iqtisadi imkanlar rəsmi Bakını qlobal oyunçular üçün daha cəzbedici məkana çevirir. Bu gün Azərbaycanın ali rəhbərliyi müharibə və münaqişələrin əməkdaşlıqla əvəzlənməsinə yönəlmiş strateji təşəbbüslər irəli sürür. Təmsil olunduğu coğrafiyanın qlobal iqtisadi təhlükəsizliyin prioritet elementi olan etibarlı bağlantıların kilid nöqtəsinə çevrilməsi üçün həm ikitərəfli, həm də çoxtərəfli strateji əlaqələr qurur. Beynəlxalq səviyyədə ciddi qarşıdurmaların, münaqişələrin yaşandığı, gərginlik coğrafiyalarının miqyasının gün keçdikcə genişləndiyi bir zamanda Azərbaycan dövlətinin ortaya qoyduğu strateji yanaşmalar əks qütblərdə dayanan tərəflərin təqdirini qazanır. Bu səbəbdəndir ki, rəsmi Bakı həm Qərb, həm də Şərq üçün mühüm platformaların vazkeçilməz iştirakçısına çevrilib.

## Qlobal çağırışlar fonunda beynəlxalq düzən

Prezident İlham Əliyevin ŞƏT-in Bişkek sammitində iştirakına və "ŞƏT plyus" görüşündəki çıxışına da məhz bu baxış bucağından yanaşılmalıdır. Dövlət başçısı çıxışı zamanı mövcud qlobal çağırışlar fonunda beynəlxalq düzənin əksər iştirakçılarını narahat edən bir sıra mühüm məqamlara toxunub. Prezident İlham Əliyev qeyd edib ki, bu gün çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək".

**SÜLH ÜÇÜN AZƏRBAYCAN NÜMUNƏSİ**

Prezident İlham Əliyev bu çıxışı ilə bir daha Azərbaycanın münaqişəyə son qoyaraq sülh və sabitlik üçün atdığı addımları dünyaya nümunə kimi göstərir. Bu məsələdə ölkəmizin təcrübəsinin mühüm əhəmiyyət kəsb etdiyini hər kəsin diqqətinə çatdırır. Həmçinin dünya nizamına yön verməli olan BMT kimi beynəlxalq təşkilatların qlobal qaydaların tənzimlənməsindəki zəifləyən rolunu önə çəkərək Azərbaycan nümunəsində münaqişənin həlli yolları üçün atılmalı olan addımların əhəmiyyətini vurğulayır. Bu gün BMT-nin beynəlxalq gərginliklər fonunda çarəsiz durumda qaldığı heç kimə sirr deyil. Bu səbəbdən dünyanın ən böyük təşkilatının qərarlarının icrası üçün yeni mexanizmlərin vacibliyi önə çəkilir. Bu mövqe bir çox ölkələrin maraqlarının ŞƏT kimi nüfuzlu platformada ifadəsi deməkdir. Rəsmi Bakının kataklizmlər fonunda beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipini dəstəkləməsi də xüsusi vurğulanmalıdır.

## Sammit çərçivəsində çoxsaylı ikitərəfli görüşlər

Sammit çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi ikitərəfli görüşlər də diqqət çəkir. Qazaxıstan, İran, Türkiyə prezidentləri ilə aparılan müzakirələr regional əməkdaşlıq mexanizmlərinin ŞƏT kimi qlobal platformalarla dəstəklənməsi, bölgəmizdə sülh və sabitlik imkanlarının genişləndirilməsi baxımından önəm daşıyır. Hindistanın Baş naziri, Rusiya Prezidenti və digərləri ilə qısamüddətli dialoqlar ölkəmizin ali rəhbərliyinin məlum ölkələrlə qarşılıqlı münasibətlərin mövcud durumunu bir daha ələ almaq, yaranmış fikir ayrılıqlarının həlli üçün diplomatik qapının hər zaman açıq olduğu mesajını vermək baxımından da xüsusi əhəmiyyət daşıyır.

**ŞƏT-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI DİNAMİKLİYİ İLƏ SEÇİLİR**

Qeyd edək ki, 2015-ci ildə ŞƏT-in Dövlət Başçıları Şurasının iclasında Azərbaycana "dialoq üzrə tərəfdaş" statusunun verilməsi ilə bağlı qərar qəbul edilib. 2016-cı ildə Pekində Azərbaycanın "dialoq üzrə tərəfdaş" statusunu rəsmiləşdirən Memorandum imzalanıb. 2022-ci ildə Səmərqənddə ŞƏT sammitində Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak edib. Dövlət başçısının 2024-cü ildə Astanada ŞƏT-in Zirvə toplantısında iştirakı ilə institusional əlaqələr yeni müstəviyə keçib. Həmin sammitdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə imzalanıb. Keçən il Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşə Prezident İlham Əliyev də qatılıb. Göründüyü kimi, ŞƏT-Azərbaycan əməkdaşlığı özünün dinamikliyi ilə seçilir. Regional bağlantıların, Orta Dəhliz amilinin əhəmiyyətinin artdığı bir zamanda bu əməkdaşlıq hər iki tərəfin maraqları ilə tam uzlaşır. Bağlantılarda əsas açar ölkələrdən birinin məhz Azərbaycan olması bu əməkdaşlığı şərtləndirən ən mühüm amillərdən sayılır.



# BİŞKEKDƏ BAKI-İRƏVAN DİALOQU



Bişkek görüşü ikitərəfli format çərçivəsində sülh gündəliyinə yeni stimul verir. Bu görüş həm də gələcəkdə atılacaq addımların koordinasiyasını təşkil etmək, qarşılıqlı etimadı gücləndirmək, iqtisadi əlaqələri genişləndirmək baxımından mühüm əhəmiyyətə malikdir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakı ilə İrəvan arasında sülh prosesi çərçivəsində görüşlərin daha bir raundu reallaşıb. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində avqustun 31-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüş keçirib. Xatırladaq ki, bu, Ermənistanda keçirilən parlament seçkilərindən sonra iki ölkə rəhbərliyinin ilk üz-üzə təmasıdır. Bundan əvvəl isə tərəflər Vaşinqton razılaşmalarının bir illiyi ilə bağlı telefonla əlaqə saxlayıblar.

### ERMƏNİSTANDAKI SEÇKİLƏRDƏN SONRA İLK GÖRÜŞ

Bişkek görüşündə tərəflər Vaşinqton Sülh Zirvə görüşünün, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannamənin, həmçinin "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəənin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülh dividendlərinin mühüm əyani təzahürü kimi qeyd edilib. Liderlər, həmçinin işgüzar dairələr arasında təmasları alqışlayıb və qarşılıqlı faydalı iqtisadi, ticarət və enerji əməkdaşlığının daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə işlərin davam etdirməsinin vacibliyini vurğulayıblar. Liderlər Vaşinqton Sülh Zirvə görüşünün mühüm nəticələrindən biri olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçirilməsi ilə bağlı növbəti praktiki addımlar barədə müzakirə aparıb və TRIPP boyunca bağlantı layihələrinin əhəmiyyətini qeyd ediblər. Tərəflər birbaşa ikitərəfli təmaslar vasitəsilə sülh istiqamətində addımları davam etdirmək barədə razılığa gəliblər.

### MÜNAQİŞƏ SƏHİFƏSİ ARTIQ BAĞLANILIB

Bakı-İrəvan ikitərəfli sülh formatı müsbət nəticələrini verməkdə davam edir. Qısa müddətdə əldə olunan razılaşmalar, həyata keçirilən tədbirlər davamlı sülh və sabitliyə istiqamətlənən hədəfləri daha da yaxınlaşdırır. Artıq Azərbaycan və Ermənistan arasında tək münaqişənin nəticələrinin aradan qaldırılması yox, həm də ikitərəfli ticarət əlaqələrinin, bağlantıların, iş adamlarının qarşılıqlı səfərlərinin reallaşdırılması müzakirə edilir. Azərbaycandan Ermənistana neft məhsullarının ixracı, tranzit vasitəsi ilə üçüncü ölkələrdən yük daşımalarının bərpasının ardınca, əks tərəfdən də mal mübadiləsinin mümkünlüyü önə çəkilir. Beləliklə, ikitərəfli format çərçivəsində əldə olunan razılaşmaların Vaşinqtonun zəmanəti ilə həyata keçirilməsi həqiqətən də 30 ildən artıq müddətdə münaqişələrdən, hərbi qarşıdurmalardan əziyyət çəkən Cənubi Qafqaza de-fakto sülh gətirib. Bu vəziyyət isə Azərbaycan və Ermənistanın maraqlarına uyğundur.

## İKİTƏRƏFLİ MÜZAKİRƏLƏR DİGƏR FORMATLARDA DAVAM ETDİRİLİR

Prezident İlham Əliyevlə Baş nazir Nikol Paşinyan arasında görüşdən dərhal sonra sülh gündəliyi ilə bağlı ikitərəfli müzakirələrin digər formatlarda da davam etdirilməsi diqqət çəkir. Belə ki, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Alen Simonyan arasında görüş keçirilib. Bu barədə Hikmət Hacıyev "X" hesabında paylaşım edib. "Prezident İlham Əliyevlə Baş nazir Nikol Paşinyanın Bişkekdə keçirilən görüşündən sonra sülh gündəliyi üzrə müzakirələr Alen Simonyanla davam etdirilib", - deyə paylaşımda bildirilib. Bu görüş bir daha tərəflərin sülh prosesini daha da irəli götürmək, qarşılıqlı etimad və əlaqələrin bərpası ilə bağlı yeni təşəbbüslər irəli sürmək istiqamətində güclü siyasi iradəsinin olmasının əyani sübutu kimi dəyərləndirilir.

### ZƏNGƏZUR DƏHLİZİNİN YARATDIĞI İMKANLAR

Bakı və İrəvan arasında sülh prosesinin davamlılığı ilə bağlı əldə olunan razılaşmalar bölgənin meqatranzit layihələrin bir parçasına çevrilmək imkanlarını da genişləndirir. Yerləşdiyimiz coğrafiyada sərhədlərimizə yaxın bölgələrdə yaşanan və illərlə davam edən münaqişələr fonunda Azərbaycan və Ermənistanın münaqişə səhifəsini bağlayaraq sülh və əməkdaşlığa üstünlük verməsi qlobal oyunçuların və regional ölkələrin də maraqlarına cavab verir. Bakı-İrəvan sülh prosesi alternativ və etibarlı bağlantıların tezliklə reallığa çevrilməsi, bu istiqamətdə qlobal tələbatın təmin edilməsinə ciddi töhfələr veriləcəyinə dair nikbinliyi də artırır. Bunun məntiqi nəticəsi olaraq, Zəngəzur dəhlizi istiqamətində cərəyan edən proseslərə nəzər salmaq kifayətdir. Tək tranzit yox, həm də elektrik ixracı və sair bu kimi strateji istiqamətləri də özündə cəmləyən TRIPP layihəsi xüsusi qeyd olunmalıdır. Azərbaycan və Ermənistan mütəxəssislərinin bu layihə ilə bağlı qarşılıqlı səfərləri, Laçında və Ermənistanda aparılan müzakirələr əməli addımların atıldığını göstərir.

Beləliklə, Bişkek görüşü ikitərəfli format çərçivəsində Azərbaycan-Ermənistan sülh gündəliyinə yeni stimul verir. Bu görüş həm də gələcəkdə atılacaq addımların koordinasiyasını təşkil etmək, qarşılıqlı etimadı gücləndirmək, iqtisadi əlaqələri genişləndirmək baxımından mühüm əhəmiyyətə malikdir.



# TİBB İŞÇİLƏRİNİ SEVİNDİRƏN TƏŞƏBBÜS



TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan tibb işçilərinin əməkhaqqı artırılır. Sentyabrın 1-dən tətbiq olunacaq artım tibb müəssisələrində çalışan 72 212 tibb işçisini əhatə edəcək.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) sistemində çalışan tibb işçilərinin əməkhaqları artırılır. Əməkhaqqı islahatına uyğun olaraq yeni qaydalar 2026-cı il sentyabrın 1-dən tətbiq olunacaq və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 212 tibb işçisini əhatə edəcək.

### TƏŞƏBBÜS BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVAYA MƏXSUSDUR

TƏBİB-in icraçı direktoru Anar Bayramov bildirib ki, əməkhaqqı artırılan tibb işçilərindən 36 041 nəfəri orta, 20 367 nəfəri kiçik tibb heyəti, 8 675 nəfəri ambulator tibbi xidmət göstərən həkimlər, 7 129 nəfəri isə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, habelə regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlərdir.

Səhiyyə sistemində çalışanların sosial-iqtisadi rifah halının yaxşılaşdırılması, əməyinin yüksək qiymətləndirilməsi və bu sahədə insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB sistemində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması təşəbbüsü Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya məxsusdur. Prezident İlham Əliyev təşəbbüsü müsbət qarşılayaraq onun icrası ilə bağlı müvafiq tapşırıq verib. Bu sahədə qabaqcıl standartların tətbiqi, tibb işçilərinin sosial rifahının gücləndirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzində olub, bu istiqamətdə həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyıb.

### ƏMƏKHAQQI ARTIMI KİMLƏRƏ ŞAMİL OLUNACAQ?

Yeni qaydalara əsasən regionlarda çalışan uşaq anestezioloq-reanimatoloqlarının aylıq əməkhaqqı 1 450 manatdan 3 000 manata yüksələcək və bu, 107 faiz artım deməkdir. Neonatoloqların əməkhaqqı 1 450 manatdan 2 400 manata çatdırılacaq (artım 950 manat və ya 66 faiz). Hemodializ həkimlərinin əməkhaqqı isə 1 450 manatdan 2 250 manata çatdırılacaq (artım 800 manat və ya 55 faiz). Həkim çatışmazlığı olan regionlarda mama-ginekologiya, neyrocərrahiyyə, uşaq cərrahiyyəsi, ürək-damar cərrahiyyəsi, üz-çənə cərrahiyyəsi və travmatologiya ixtisasları üzrə həkimlərin aylıq əməkhaqqı 1 450 manatdan 2 150 manata yüksələcək. Bu, əlavə 700 manat və ya 48 faiz artım deməkdir. Yeni islahatla 36 041 orta tibb işçisinin aylıq əməkhaqqı artımı 17 faiz, 20 367 kiçik tibb işçisinin əməkhaqqı artımı isə 18 faiz təşkil edəcək.

## "BU, ÇOX ZAMANINDA VERİLMİŞ QƏRARDIR"

Əməkhaqqı artımı TƏBİB sistemində çalışan tibb işçiləri tərəfindən böyük sevinclə qarşılanıb. Respublika neyrocərrahiyyə xəstəxanasının təcili tibbi yardım şöbəsinin müdiri Polina Əliyeva "Report"a bildirib ki, bu, çox zamanında verilmiş qərardır. "Çox şadıq ki, bizim çətin, məsuliyyətli, riskli əməyimiz belə qiymətləndirilib", - o deyib.



Polina Əliyeva

P. Əliyeva vurğulayıb ki, islahatlar sırasında daha çox işləyən həkimin daha çox qazancı olacağı məlumatı səhiyyə işçiləri arasında entuziazmla qarşılanıb: "Bundan əvvəl artıq iş saatının ödənilməsi çətinlik yaradırdı. Əlavə ödənişlərlə bağlı qaydalar dəqiq olmadığından bir sıra məhdudiyyətlər var idi. Yeni sistemə əsasən isə daha çox pasiyent qəbul edən, daha çox işləyən həkim daha çox qazanacaq. İnanıram ki, yaxın zamanlarda dəqiq meyarlar hazırlanacaq".

### KADR ÇATIŞMAZLIĞINI ARADAN QALDIRACAQ

Milli Məclisin deputatı Pərvanə Vəliyeva "Report"a açıqlamasında deyib ki, TƏBİB sistemində çalışan 72 212 tibb işçisinin əməkhaqqı fondunun illik 189 milyon manat artırılması onların maddi rifahının yaxşılaşdırılmasına xidmət edən mühüm sosial addımdır. Deputatın fikrincə, əməkhaqlarının artırılması, eyni zamanda, səhiyyə sektorunda mövcud kadr çatışmazlığının aradan qaldırılması və iş yükünün daha ədalətli bölüşdürülməsi baxımından da əhəmiyyətlidir: "Xüsusilə, regionlarda səhiyyə xidmətlərinin əlçatanlığının təmin olunması üçün kadr potensialının gücləndirilməsi əsas məsələlərdən biridir. İlkin səhiyyə xidməti üzrə aparılmış araşdırmalar əlavə olaraq təxminən 1 500 tibb işçisinə ehtiyac olduğunu göstərir. Bu baxımdan, əməkhaqqının artırılması regionlarda çalışmaq üçün tibb işçiləri üçün daha əlverişli və rəqabətqabiliyyətli şərait yarada bilər".




# "SOCAR Green"dən BESS açıqlaması

Batareya Enerji Saxlanc Sistemləri (BESS) Azərbaycanın enerji ixrac dəhlizlərinin əsas komponentinə çevriləcək. "Report" xəbər verir ki, bunu "SOCAR Green"in Texnologiyalar və innovasiyalar departamentinin direktoru Elçin Tarquliyev "Azərbaycanda infrastrukturun inkişafı, elektromobillik və bərpa olunan enerjinin saxlanılması üçün həllər" adlı vebinarda deyib.

"BESS-in ən geniş yayılmış və tanınmış tətbiqi enerji şəbəkəsinin sabitliyinin təmin edilməsidir. Bu sistem şəbəkənin tezliyini dəstəkləməyə, ehtiyat güc funksiyalarını yerinə yetirməyə, gərginliyi tənzimləməyə, sıfırdan işə salmanı təmin etməyə və digər vəzifələri həyata keçirməyə qadirdir. Eyni zamanda o, enerji layihələrinin tərtibatçılarına əhəmiyyətli fayda gətirə bilər. Məsələn, bu sistem günəş elektrik enerjisi istehsalçıları üçün generasiyanın zaman dəyişməsini həyata keçirməyə imkan verir. Bu sistem sayəsində istehsal olunmuş enerjini yüksək istehlak dövrlərinə yenidən bölüşdürə bilərik", - o qeyd edib.

Batareya Enerji Saxlanc Sistemləri tərtibatçılara bu problemin həllinə kömək edə bilər: "İstehsalın məcburi azaldılması əvəzinə onlar enerjini yığıb aşağı generasiya anlarında şəbəkəyə verə bilərlər. Nəhayət, yaxın perspektivdə xüsusi əhəmiyyət kəsb edən məsələ ixrac dəhlizləridir. Azərbaycanda çoxsaylı ixrac enerji dəhlizləri yaradılacaq və batareya saxlanc sistemləri onların ən mühüm tərkib hissəsinə çevriləcək".

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1145
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ŞENGEN VİZASI DA RƏQƏMSALLAŞIR




**Avropa İttifaqı Şengen vizası sistemini rəqəmsal formata keçirməyə hazırlaşır. Yeni sistem tam tətbiq edildikdən sonra pasportlardakı ənənəvi viza stikerlərinin yerini rəqəmsal vizalar alacaq.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Avropaya səyahət etməyi planlaşdıranlar üçün mühüm yenilik gözlənilir. Avropa İttifaqı (Aİ) Şengen vizası sistemini rəqəmsal formata keçirməyə hazırlaşır. Yeni sistem tam tətbiq edildikdən sonra pasportlardakı ənənəvi viza stikerlərinin yerini rəqəmsal vizalar alacaq. Aİ-nin bildirdiyinə görə, yeni rəqəmsal sistem Şengen vizası üçün müraciət prosesini daha rahat və çevik etməyi hədəfləyir. Vahid onlayn viza platformasının - EU Visa Portal və rəqəmsal vizaların 2030-cu ildə tam şəkildə qüvvəyə minməsi planlaşdırılır. Keçid mərhələsində sistemin ayrı-ayrı ölkələrdə sınaqdan keçirilməsi və mərhələli şəkildə tətbiqi nəzərdə tutulur.

Maraqlıdır, Avropaya marağı kifayət qədər böyük olan azərbaycanlı turistlər üçün bu dəyişiklik nə vəd edir?

### QR KODA BƏNZƏR RƏQƏMSAL VİZA

Turizmçi Günel Şıxıyeva bildirir ki, Şengen vizasının rəqəmsallaşdırılması ilə vizaya müraciət prosesi xeyli asanlaşacaq: "Hazırda kağız və fiziki şəkildə həyata keçirilən proseslərin böyük hissəsi onlayn sistemə keçiriləcək. Turist vahid Avropa platformasında müraciət formasını doldura, sənədlərini yükləyə, ödənişini edə və müraciətinin statusunu izləyə biləcək. Əsas məqsəd prosesi həm turist, həm də konsulluqlar üçün daha rahat və təhlükəsiz etməkdir".

Turizmçinin sözlərinə görə, əsas dəyişiklik pasporta rəngli vizanın vurulmaması ilə bağlı olacaq: "İndiki pasporta yapışdırılan rəngli Şengen viza stikeri gələcəkdə rəqəmsal viza ilə əvəz olunacaq. Rəqəmsal viza kriptoqrafik olaraq imzalanmış 2D barkod formasında olacaq və vizanı saxtalaşdırmaq daha çətin olacaq. Yəni bunu sadə dildə QR koda bənzər rəqəmsal viza kimi izah edə bilərik, amma rəsmi adı 2D barkoddur".



Günel Şıxıyeva

## İlk dəfə müraciət edənlər yenə viza mərkəzlərinə getməli olacaqlar

G.Şıxıyaeva hesab edir ki, yenilik artıq "heç vaxt viza mərkəzinə getməyəcəyik" demək deyil: "İlk dəfə müraciət edənlər, biometrik məlumatları yenilənməli olan şəxslər və müəyyən hallarda yeni pasportla müraciət edənlər yenə şəxsən mərkəzlərə getməli olacaqlar. Texniki baxımdan turistin özünün müraciət etməsi daha da asanlaşacaq. Platforma hətta bir neçə Şengen ölkəsinə gedən şəxsin hansı ölkəyə müraciət etməli olduğunu müəyyənləşdirməyə kömək edəcək. Amma düşünmürəm ki, proses müddətində turizm şirkətlərinə ehtiyac tamamilə aradan qalxacaq. Çünki viza sadəcə anket doldurmaq deyil. Düzgün marşrutun qurulması, otel və aviabilet rezervasiyaları, sığorta, maliyyə sənədləri və ümumiyyətlə dosyenin düzgün hazırlanması yenə vacib olacaq. Sadəcə, turizm şirkətlərinin bu sahədə rolu dəyişəcək və daha çox peşəkar konsultasiya və sənədlərin düzgün hazırlanması istiqamətinə keçəcək".




Turizmçinin fikrincə, sənədlərin onlayn təqdim olunması, ödəniş və məlumat mübadiləsinin elektron aparılması prosesi daha operativ edə və əlavə vaxt itkisini azalda bilər: "Avropa İttifaqı da rəqəmsallaşdırmanın məqsədlərindən birinin həm müraciət edənlərin, həm də dövlətlərin xərclərini azaltmaq olduğunu bildirir. Amma burada bir şeyi ayırmaq lazımdır: müraciət prosesinin sürətlənməsi vizanın mütləq daha tez veriləcəyi demək deyil. Vizanın verilib-verilməməsi ilə bağlı araşdırma və son qərar yenə müvafiq Şengen ölkəsinin səlahiyyətində qalacaq. Ən vacib məsələ odur ki, sistem bir gündə tam dəyişməyəcək.

Hazırda Aİ-nin öz məlumatında da vahid platformanın tətbiqinin mərhələli olacağı göstərilir. Ona görə Azərbaycan vətəndaşları səfər edəcəkləri ölkənin həmin tarixdə hansı müraciət sistemindən istifadə etdiyini mütləq yoxlamalıdırlar".

## "Hər şeyi kağız şəklində hazırlamaq ehtiyacı azalacaq"

Turizmçi Telman Hacıyev hesab edir ki, vizanın rəqəmsallaşması turist üçün daha rahat və daha az kağız işi deməkdir: "Müraciət prosesi böyük ölçüdə onlayn platformaya keçiriləcək. Rəqəmsal viza xüsusi 2D barkod formatında olacaq və vizanın sahibinin fotoşəkli də sistemdə yer alacaq. Sərhəddə məlumatlar elektron sistem üzərindən yoxlanılacaq və vizanın saxta olub-olmadığı, həmçinin həmin şəxsə aid olub-olmadığı müəyyən ediləcək. Ərizə və tələb olunan sənədlərin böyük hissəsi elektron formada təqdim olunacaq. Sistem hansı sənədlərin lazım olduğunu da göstərəcək. Yəni əvvəlki kimi hər şeyi kağız şəklində hazırlamaq ehtiyacı azalacaq".

### "KEÇİD DÖVRÜNDƏ BİR QƏDƏR SƏBİRLİ OLMAQ LAZIM OLACAQ"

Yeni sistem heç də bütün müraciətçilər üçün tamamilə onlayn olmayacaq, ilk dəfə müraciət edən və biometrik məlumat təqdim etməli olan şəxslər müəyyən hallarda yenə də şəxsən viza mərkəzinə getməli olacaqlar: "Xüsusilə barmaq izi və foto kimi biometrik məlumatlarla bağlı fiziki iştirak tələb oluna bilər. Rəqəmsallaşmanın əsas məqsədlərindən biri prosesi daha sürətli və effektiv etməkdir. Amma bu, avtomatik olaraq vizanın daha tez veriləcəyi anlamına gəlmir. Müraciətin baxılma müddəti yenə də konsulluğun qərarından və sənədlərin vəziyyətindən asılı olacaq. İlk mərhələdə sistemə uyğunlaşma, texniki problemlər həm turistlərin, həm də viza mərkəzlərinin yeni prosedurlara alışması müəyyən çətinliklər yarada bilər. Ona görə keçid dövründə bir qədər səbirli olmaq lazım olacaq". Turizm şirkətlərinin işinə gəlincə, T.Hacıyev hesab edir ki, onların işi tamamilə aradan qalxmayacaq: "Əksinə, turistlər üçün düzgün sənədlərin hazırlanması, ərizənin düzgün doldurulması və prosesin dəqiq yönləndirilməsi yenə vacib olacaq. Sadəcə, işin böyük hissəsi kağızdan elektron sistemə keçəcək. Əgər sistem problemsiz işləsə, müraciət prosesi daha rahat, şəffaf və sürətli olacaq. Xüsusilə Azərbaycandan Avropaya tez-tez səyahət edən turistlər üçün bu, kifayət qədər müsbət dəyişiklikdir. Amma ilk mərhələdə sistemin necə işləyəcəyini görmək lazımdır".



Telman Hacıyev

# AVROPANI ÇƏTİN QIŞ GÖZLƏYİR

Hazırda qitənin qaz anbarları yalnız 61% doldurulub ki, bu da son 13 ilin ən aşağı göstəricisidir. Qaz anbarlarının doluluq səviyyəsinin aşağı həddə qalması və geosiyasi qarşıdurmalar Avropa ölkələrində qaz təminatının sabitliyi ilə bağlı narahatlıqları artırıb.





AZƏR NURİYEV

Avropa yeni qış mövsümü ərəfəsində enerji bazarında ciddi sınaqla üz-üzədir. Qitənin qaz anbarları yalnız 61% doldurulub ki, bu da son 13 ilin ən aşağı göstəricisidir. Səbəblər də məlumdur: İrandakı müharibə, yaydakı anomal istilər və keçən ilin soyuq qışı. Qazın qiyməti ilin əvvəli ilə müqayisədə artıq iki dəfə artıb. Qiymət artımı Avropada qaz anbarlarının doluluq nisbətinin ötən illə müqayisədə aşağı olduğu vaxta təsadüf edir.

### ANBARLARIN DOLULUQ NİSBƏTİ HAZIRDA 61,40 FAİZDİR

"Gas Infrastructure Europe"nin (GIE) məlumatına görə, Avropadakı anbarların doluluq nisbəti hazırda 61,40 faiz, Almaniyada isə 50,06 faizdir. Ötən ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 74 və 67 faiz olub. Qaz anbarlarının doluluq səviyyəsinin mövsüm üçün aşağı həddə qalması, qlobal qaz bazarında rəqabətin güclənməsi və geosiyasi qarşıdurmalar Avropa ölkələrində qaz təminatının sabitliyi ilə bağlı narahatlıqları artırıb. Enerji böhranının yenidən gündəmə gəlməsi xüsusilə sənaye və əhali üçün qaz və elektrik qiymətlərinin yüksəlməsi riskini artırır. Qərb mediası və ekspertləri hazırkı vəziyyəti "Avropada qaz yoxdur" kimi qiymətləndirməyin tərəfdarı deyillər. Onların qənaətincə, əsas problem qazın fiziki olaraq tamamilə tükənməsi deyil, qış aylarında tələb artdığı zaman kifayət qədər qazı münasib qiymətlə təmin etmək məsələsidir. Avropa Komissiyası da iyul ayında növbəti qış üçün qaz təhlükəsizliyi problemi olmadığını açıqlamışdı. Lakin qurum anbarların doldurulmasının və hazırlığın davam etdirilməsinin də vacibliyini vurğulamışdı.

Hazırda "qış gəlməmiş anbarlar kifayət qədər doldurula biləcəkmi?" sualı ön plana çıxıb. Qaz anbarları Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Avropa Komissiyasının məlumatına görə, qış aylarında Aİ-də istehlak olunan qazın 35 faizədək hissəsi anbarlardan təmin edilə bilər. Buna görə də anbarlardakı aşağı göstərici xüsusilə soyuq hava şəraitində bazara əlavə təzyiq yaradır.

## RUSİYA QAZI İLƏ BAĞLI QƏRAR QÜVVƏYƏ MİNİR

Vəziyyəti gərginləşdirən həm də odur ki, yanvar ayında Aİ Rusiya qazının qitəyə idxalını qadağan edən qanun layihəsini rəsmi olaraq təsdiqləyib. Mayeləşdirilmiş təbii qaz idxalına tam qadağa 2027-ci ilin əvvəlində, boru kəməri qazının idxalı ilə bağlı qərar isə 2027-ci ilin payızında qüvvəyə minəcək. Aİ-yə qaz idxalına icazə almaq üçün mənşə ölkəsinin yoxlanılması proseduru tələb olunacaq. Yeni qaydalara əməl edilməməsi fiziki şəxslər üçün maksimum 2,5 milyon avro, hüquqi şəxslər üçün isə 40 milyon avro, şirkətin ümumi illik dövriyyəsinin 3,5%-i və ya təxmini əməliyyat dövriyyəsinin 300%-i məbləğində cərimə ilə nəticələnəcək. Yalnız Macarıstan və Slovakiya qanunun əleyhinə səs veriblər.

### AVROPADA DÖVLƏTLƏR HANSI BAZAR PAYINA MALİKDİR?

Məlumat üçün qeyd edək ki, 2022-ci ildən sonra Rusiya qazının Avropa bazarındakı payı kəskin şəkildə azalıb. Avropa Komissiyasının məlumatına əsasən, Rusiya qazının Aİ idxalındakı payı 2021-ci ildəki 45 faizdən 2025-ci ildə 12 faizə düşüb. Eyni zamanda LNG-nin payı 20 faizdən 45 faizə yüksəlib. Bu dəyişiklik Avropaya enerji mənbələrini şaxələndirmək imkanı versə də, digər tərəfdən qitəni qlobal LNG bazarından daha çox asılı vəziyyətə gətirib. Norveç hazırda Avropanın əsas qaz təchizatçılarından biridir. ABŞ LNG-si də Avropanın enerji balansında mühüm rol oynayır. 2025-ci ildə Aİ qaz idxalının təxminən 31 faizi Norveçin, 26 faizi ABŞ-nin, 13 faizi Şimali Afrikanın, 4 faizi isə Azərbaycanın payına düşüb.



## LNG BAZARINDA DA CİDDİ RƏQABƏT VAR

Avropanın qaz təhlükəsizliyinə təsir edən əsas amillərdən biri LNG bazarındakı rəqabətdir. Avropa boru kəmərləri ilə əvvəlki həcmdə Rusiya qazı ala bilmədiyindən mayeləşdirilmiş təbii qaza daha çox üstünlük verir. Lakin LNG yalnız Avropanın ehtiyacı deyil. Asiya ölkələri, xüsusilə Çin və digər böyük istehlakçılar da eyni bazardan qaz almağa çalışırlar. Bu isə tələbin artdığı dövrlərdə qiymətlərin sürətlə yüksəlməsinə səbəb olur. Bundan əlavə, 2026-cı ildə Yaxın Şərqdəki münaqişə və Hörmüz boğazında yaranmış problemlər qlobal LNG ticarətinə ciddi təsir göstərib. Beynəlxalq Enerji Agentliyinin proqnozuna görə, 2026-cı ildə Qətər və BƏƏ-dən LNG tədarükünün birlikdə təxminən 45 faiz azalması gözlənilir. Bunun bir hissəsinin Şimali Amerika, Afrika və Avstraliyadakı yeni layihələrin hesabına kompensasiya olunacağı proqnozlaşdırılır.

Əvvəlki enerji böhranlarından fərqli olaraq, hazırda Avropa artıq daha geniş LNG infrastrukturu və daha çevik qaz bazarına malikdir. 2022-ci ildən sonra yeni LNG terminallarının istifadəyə verilməsi Avropanın alternativ mənbələrdən qaz alma imkanlarını genişləndirib. Avropa Komissiyası da bu infrastrukturun aşağı anbar səviyyələrini müəyyən dərəcədə kompensasiya edə biləcəyini bildirir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

MÜSAHİBƏ Kaspi 5 SENTYABR ŞƏNBƏ 2026 9

XARİCDƏ TƏHSİL ALMAQ İSTƏYƏNLƏR ETİBARLI ŞİRKƏTİ VƏ YA KONSULTANTI NECƏ SEÇMƏLİDİRLƏR Kİ, YANILMASINLAR

# ASAN QƏBUL, ÇƏTİN NƏTİCƏ: XARİCDƏ TƏHSİL REALLIĞI

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Günay Əkbərova:** "Bəzən PR-a aldanırıq. "100 faiz təqaüdlə təhsil", "Attestatla qəbul", "100 faiz qəbul şansı" kimi elanları harada görürüksə, tərəddüdlü yanaşmalıyıq".

Xaricdə təhsil almaq bir çox gənc üçün arzudan daha çox, gələcəyə qoyulan investisiya kimidir. Lakin xarici universitetə qəbul olmaq təkcə arzu ilə olmur. Ölkə və universitet seçimi, qəbul tələbləri, dil sertifikatı, sənədlərin hazırlanması, viza, təhsil və yaşayış xərcləri kimi bir-birindən fərqli mərhələlər arzulayanın qarşısına çoxsaylı suallar çıxarır.

Məhz belə vəziyyətlərdə xaricdə təhsil üzrə xidmət göstərən şirkətlər və ya fərdi konsultantlar tələbələrə yol göstərməyə çalışır. Bu zaman tələbə və valideynlərin qarşısında başqa bir sual yaranır: etibarlı şirkəti və ya konsultantı necə seçməli? Son vaxtlar baş verən hadisələr - valideyn və abituriyentlərin aldadılması, onların məlumatsızlığından sui-istifadə, ödənişlərinin mənimsənilməsi və s. hallar isə xaricdə təhsil üçün müraciət edənləri ehtiyatı əldən verməməyə çağırır.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərova ilə söhbətimiz də bu mövzudadır:

## "XARİCDƏ TƏHSİL ŞİRKƏTLƏRİ VƏ KONSULTANTLAR MÜTLƏQ OLMALIDIR"

**● Günay xanım, son illərdə xaricdə təhsil almaq istəyənlərin sayı artır. Ancaq xaricdə təhsil şirkətləri və təhsil konsultantları ilə bağlı artıq cəmiyyətdə müəyyən fikir ayrılıqları yaranıb. Bəziləri bu şirkətlərin və belə şəxslərin tələbələr üçün prosesi asanlaşdırdığını düşünür, bəziləri isə onların xidmətlərinə ehtiyac olmadığını bildirir. Xüsusən müəyyən xoşagəlməyən hadisələr, narazılıqlar, dələduzluq halları baş verdikdən sonra sizcə, tələbə hansı halda belə şirkətlərə və ya konsultantlara müraciət etməlidir?**

● Xaricdə təhsil şirkətlərinin fəaliyyətinə ehtiyac olmadığını düşünmək məncə, yanlış olar. Çünki xaricdə təhsil şirkətləri və konsultantlar mütləq olmalıdır. Xaricdə təhsil bütün dünyaya xas olan bir tendensiyadır - hansısa ölkələrdə daha geniş, hansındasa az yayılıb. Sadəcə, bizim xaricdə təhsil şirkətləri və konsultanların fəaliyyəti dünyada mövcud olan analoji xidmətə nə qədər oxşar və ya fərqlidir - əsas sual budur. Digər tərəfdən, xaricdə təhsil almaq arzusunda olan abituriyent və valideynlər kimlərdir və nə üçün bunu istəyirlər? Çünki bu istəyin müxtəlif səbəbləri var. Əgər səbəb doğrudan da "mən xaricdə təhsil alacağam" deyə uşaqlıqdan qarşıya qoyulan məqsəddirsə, bu, çox təbiidir. Amma bir çox hallarda biz müşahidə edirik ki, bu xidmətdən yararlanmaq istəyənlər qəbul imtahanlarından daha az bal toplayan abituriyentlərin valideynləridir. Təhsil şirkəti və ya konsultant prosesi daha rahat etmək üçün müraciət edənin əvəzində mərhələləri keçir və ya keçmək üçün dəstək olur. Müqavilədə də açıq formada "biz sizə bu xidmətləri göstərəcəyik" sözləri qeyd olunmalıdır. Əgər müraciət edən məlumatlı deyilsə, həmin şirkət və ya konsultantlardan müəyyən məsləhət xarakterli dəstək ala bilər. Bəzən düzgün məlumatın olmaması və ya yanlış seçim valideynin və gəncin arzusunu ciddi maliyyə və vaxt itkisinə çevirə bilir. Biz xaricdə təhsillə bağlı məsləhət olmasını dəstəkləyirik, amma bu məsləhətin insanlara aldadıcı sözlərlə təsir etməsini istəmirik.



## İMTAHANSIZ, DİPLOMSUZ, SADƏCƏ ATTESTATLA...

**● Bəzən şirkətlər tələbələrə "100 faiz qəbul", "imtahansız qəbul" və s. kimi vədlər verirlər. Belə vədlər nə dərəcədə realdır və tələbə bu cür təkliflərlə qarşılaşdıqda necə davranmalıdır?**

● Bəzi ölkələrlə bağlı xaricdə təhsilin PR-ı "imtahansız, diplomsuz, sadəcə attestatla" adı altında aparılır. Valideynlər də "nə olursa olsun, övladımız mütləq universitet diplomu almalıdır" - deyə israr edirlər. Biz bəzən PR-a aldanırıq. "100 faiz təqaüdlə təhsil", "Attestatla qəbul", "100 faiz qəbul şansı" kimi elanları harada görürüksə, tərəddüdlü yanaşmalıyıq. Amma biz bunu "mütləq bu şirkət mənim övladımı instituta qəbul etdirəcək", "diplom verəcək, övladım yerdə qalmayacaq" fikirləri ilə qarışdırırıq. Xüsusən, hərbi xidmət məsələsinə görə valideynlər oğlan uşaqlarının universitetə daxil olması üçün canfəşanlıq göstərirlər. Bunun nəticəsində yaranan problemlər də göz önündədir. Normalda "100 faiz qəbul olacaqsan" əminliyi yoxdur. Qəbul ola da bilərsən, olmaya da... Hər hansı universitetin "qəbul verəcəyik" məsələsində diqqətli olmaq lazımdır. Yoxsa bu sonda diplomun tanınmamasına və ya tələbənin oradakı həyat şəraitinə uyğunlaşmamasına gətirib çıxarır. Bəzən şəffaf işləyən şirkət və konsultanlar olur ki, tələbəyə hər formada kömək edir. Tələbə qəbul alır və gedib oxumağa başlayır. Sadəcə, tələbə bəzən oradakı həyat şəraitinə və təhsil mühitinə uyğunlaşa bilmir: kəsirləri olur və ya maliyyə çətinlikləri yaşayır.

## "SONUNDA DİPLOMUN TANINMAMASI HALLARI İLƏ QARŞILAŞIRLAR"

**● Problemlər ən çox hansı ölkələrin ali məktəbləri ilə yaranır?**

● Bizdə ən çox problemlər Ukrayna, Rusiya və Türkiyə universitetləri ətrafında baş verir. Amma bu o demək deyil ki, oradakı bütün universitetlərlə eyni hadisələr baş verir. Bunlar əsasən distant təhsil modeli ilə əlaqədardır. Ukraynada müharibə ilə bağlı təhsilin distant forması daha aktualdır. Türkiyədə də insanlar bir çox hallarda distant təhsilə yönəlirlər. Ancaq sonunda diplomun tanınmaması halları ilə qarşılaşırlar. Və yaxud dili bilməyən gənc Rusiya, Ukrayna və ya başqa ölkələrdə təhsil almaq istəyir. Təbii ki, orada çətinliklə qarşılaşırlar.

**● Dövlət proqramları ilə xaricdə təhsil şirkətlərinin təqdim etdiyi imkanlar arasında hansı əsas fərqlər var? Tələbələr dövlət proqramına müraciət edərkən vasitəçi şirkətə ehtiyac duyurlarmı?**

● Dövlət proqramında heç bir vasitəçi şirkətə ehtiyac yoxdur. Çünki nazirliyin rəsmi səhifələrində aydın formada tələblər haqqında yazılır. Uyğun namizədlər müsahibəyə dəvət olunur və proses bu formada tənzimlənir. Ali məktəblər də rəsmi reytinqlərə uyğun, akkreditasiyası yerində olan universitetlərdir. Siyahıda olan universitetlərin heç birində də problem yaranmır. Təqaüd qarşılandığı üçün tələbə təhsil xərclərindən azaddır. Təhsil şirkətləri isə təhsil və yaşayış xərclərini qarşılamır. Sadəcə, onlar xaricdə təhsillə bağlı məsləhət xidməti göstərir.

## "PROBLEMLƏR "KARTDAN-KARTA, ƏLDƏN-ƏLƏ" PROSESLƏRİNDƏN YARANIR"

**● Şirkət və ya konsultant seçərkən tələbə və ya valideyn ilk növbədə nələri araşdırmalıdır?**

● İşimizi bir az ehtiyatlı qurmalıyıq. Bu gün şirkətlərin təklif etdiyi hər bir universitetin rəsmi internet səhifəsi var. Bunu hər kəs bilməlidir ki, əsas tələb olunan şərtlərdən biri universitetlərin akkreditasiyası - beynəlxalq standartlara uyğun olub-olmamasıdır. Təhsilin Keyfiyyəti Təminatı Agentliyinin rəsmi səhifəsində diplomun hansı formada təsdiqlənəcəyi göstərilir. Hətta universitetlərin akkreditasiyası, diplomu daha asan qəbul olunan və olunmayan universitetlərin siyahısı da orada yer alıb. Şükür ki, son illərdə adamlarda məlumatlılıq xeyli artıb. Əvvəllər daha kortəbii surətdə reklamlara və elanlara qaçırdılar. Amma yenə də məlumatlılıq tam deyil. Bölgədə yaşayan məlumatsız bir valideyni aldatmaq yenə də asandır. Müraciət edənlər ilk növbədə xaricdə təhsil şirkətinin özü ilə rəsmi müqavilə imzalamalıdırlar. Bu müqavilədə şirkətin sizə nə verə biləcəyi və sizin şirkətdən nə tələb edəcəyiniz aydın qeyd olunmalıdır. Ən çox problemlər müqavilələrin olmaması, ödənişlərin qabaqcadan alınması ilə bağlı baş verir. Və ya müqavilədəki şərtlər valideyn tərəfindən düzgün oxunmur. Bu, hüquqi formada tənzimlənməli prosesdir. Bu gün problemlər "kartdan-karta, əldən-ələ" proseslərindən yaranır. Əslində isə valideyn bütün ödənişlər müqabilində qaimə istəməlidir. Elə etmək lazımdır ki, sabah şikayət edəndə əldə qəbzlər olsun. Digər tərəfdən, müraciət edənlər seçdikləri universiteti, onun mühitini diqqətlə araşdırmalıdırlar. Biz bu gün müşahidə edirik ki, diplom alınır, sonra tələbə iş tapa bilmir. Universitetin reytinqi onun nə qədər məzununun iş tapması ilə bağlıdır. Bu gün işəgötürənlər müraciət edənin haranı bitirməsinə, oxuduğu universitetin reytinqinə fikir verirlər.

> *Ən çox problemlər müqavilələrin olmaması, ödənişlərin qabaqcadan alınması ilə bağlı baş verir. Və ya müqavilədəki şərtlər valideyn tərəfindən düzgün oxunmur.*

## ABSURD VƏ ŞİŞİRDİLMİŞ VƏDLƏR

**● Təqaüd məsələsində də çoxlu yanlış təsəvvürlər var. Tələbələr təqaüd proqramlarının həqiqiliyini və şərtlərini necə yoxlamalıdırlar?**

● Bəzən təqaüd reklam xarakterli sözlərdən ibarət olur. Əgər universitet həqiqətən də təqaüd verirsə, şərtlərini araşdırmaq lazımdır. Bəzən təqaüdlərin forması fərqli olur: tam təqaüdlər tələbənin bütün xərclərini qarşılayır. Bəzən elə təqaüdlər olur ki, yalnız təhsil xərclərini qarşılayır. Təhsil şirkətləri belə bir məqamdan da istifadə edirlər: "bu təqaüd var, amma biz əlavə olaraq təqaüdə müraciət üçün sizdən əlavə məbləğ tələb edəcəyik". Belə problemlərlə üzləşməmək üçün universitetin rəsmi səhifəsinə daxil olub birbaşa müraciət etmək daha məqsəduyğundur.

**● Viza məsələsi xaricdə təhsil almaq istəyənlərin ən çox narahat olduğu mövzulardandır. Şirkətlərin viza prosesində rolu nə qədərdir? Şirkət tələbəyə viza almağa zəmanət verə bilərmi?**

● Problemlərdən biri də müəyyən vədlər verilməsidir. Əgər şirkətlər və konsultantlar "Viza və universitet məsələsini həll edəcəyik"- deyirlərsə bu, o ali məktəbin və həmin ölkənin daxili işlərinə müdaxilədir. Viza məsələsi həmin universitetin yerləşdiyi ölkənin səlahiyyətindədir. Heç bir şirkət və nümayəndə o ölkənin viza şərtlərinə müdaxilə edə bilməz. Bəzi hallarda görürük ki, nə ölkə, nə universitetlə bağlı problem var, amma viza ilə bağlı bank hesabı, təhlükəsizlik, müraciətçi haqqında məlumatların əldə edilməsi və s. kimi müəyyən şərtlər tələb olunur. Şirkət həmin şərtləri araşdırmır, viza məsələsində o şərtlərə uyğunsuzluq aşkarlanır. Demək, vədlərə yox, qanunvericilikdə məsələlərin necə tənzimlənməsinə diqqət eləmək lazımdır. Bu baxımdan, "100 faiz viza dəstəyi" vədləri absurd və şişirdilmişdir.



Fotolar: Məhəmməd Sunaverdiyev/Global Photostock

## "Yaxşı təhsil heç vaxt aşağı qiymətlə olmur"

**● Xaricdə təhsil üçün ölkə seçərkən hansı amillər nəzərə alınmalıdır? Məsələn, yalnız təhsil haqqının aşağı olması həmin ölkənin tələbə üçün əlverişli seçim olmasına kifayət edirmi?**

● Kifayət etmir... Bəzən valideynlər yalnız təhsil müəssisəsinin illik təhsil haqqına diqqət edirlər. Bəs tələbənin yaşayacağı ölkədəki həyat şərtləri? Bu valideyni qane edəcəkmi? Əslində seçimə təsir edən bir çox nüans var ki, akkreditasiya, diplomun tanınmasından başlayır, digər məişət qayğılarına qədər davam edir. Təhsil lyuks bir şeydir. Yaxşı təhsil heç vaxt aşağı qiymətlə olmur. Biz onu əldə etmək üçün çox çalışmalıyıq. Biz təhsilə ucuz bir şey kimi baxsaq, hansısa problem çıxacaq. Məsələn, təhsil haqqının aşağı, amma həyat şərtlərinin baha olması və ya təhsil xərci münasib olsa da, universitet reytinqinin aşağı olması kimi. Seçilən universitetin yerləşdiyi ərazinin təhlükə-sizliyi də çox önəmlidir.

**● Xaricdə təhsil adı altında son vaxtlar bir sıra dələduzluq halları baş verib. Sizə görə, bu sahədə nəzarət kifayət qədərdirmi?**

● Təbii ki, nəzarət var. Biz bu gün həmin şirkətlərin nümayəndələrinin həbs olunması xəbərlərini oxuyuruq. Amma kifayət qədər insan şikayət etdikdən, ən pisi zərər gördükdən sonra... Sosial şəbəkə dövrü olduğundan nəzarət bir az çətindir. Çünki sosial platformalarda bir çox insanın müxtəlif adlarda bir neçə hesabı ola bilər. Burada xidməti istəyən insanın üzərinə böyük rol düşür: o, ehtiyatını əldən verməməli, məlumatlılığını artırmalıdır.

**● Bir tələbə hazırda xaricdə təhsil almaq istəyir və qarşısında bir təhsil şirkətinin təklifi var. Onun fırıldaqla üzləşməməsi üçün hansı məsləhəti verərdiniz?**

● İlk növbədə verilən vədlərin doğru olub-olmamasını universitetin rəsmi saytından yoxlamalıdır. Hər şey doğrudursa, həmin universitetin təhsil şərtləri ilə tanış olmaq lazımdır. "Maliyyə imkanlarım o ölkədə yaşamağa imkan verirmi, o ölkənin yaşayış şərtləri ilə uyğunlaşa biləcəyəmmi?" suallarının da cavabı olmalıdır. Əgər bu şərtlər əl verirsə, onda müraciət etmək olar.



# GÜCLÜ SELLƏRƏ NƏ DƏRƏCƏDƏ HAZIRIQ?

SEVİNC ABBASOVA

**Azərbaycanda yağış mövsümü başlayır. Son illərdə yağıntıların intensivliyinin artması Nepaldakı dəhşətli sel fəlakətindən sonra ölkəmizdə də bu cür hadisələrin baş verə biləcəyi ilə bağlı narahatlıqlar yaradıb.**

Nepalda baş verən dəhşətli sel fəlakəti böyük itkilərə səbəb olmaqla yanaşı, iqlim dəyişikliklərinin yaratdığı riskləri bir daha gündəmə gətirib. Ümumiyyətlə, son illərdə iqlim dəyişiklikləri ilə əlaqədar dünyada güclü yağıntılar, sel və daşqın kimi ekstremal hava hadisələrinin artması müşahidə olunur. Baş verənlər göstərir ki, belə təbii fəlakətlərin qarşısını tam almaq mümkün olmasa da, dövlətlərin əvvəlcədən hazırlıqlı olması insan və maddi itkilərin minimuma endirilməsində mühüm rol oynayır.

Son illər Azərbaycanda da havanın yağıntılı keçməsi, eləcə də bu il rayonlarda ciddi sel hadisələrinin müşahidə olunması ölkəmiz üçün də suallar yaradır. Bəs, Azərbaycanda Nepalda olduğu kimi dağıdıcı miqyasda sel hadisəsinin baş verməsi mümkündürmü? Yerli mütəxəssislər mövcud vəziyyəti necə qiymətləndirirlər və belə hadisələrin törədə biləcəyi fəsadları azaltmaq üçün hansı hazırlıq işləri görülməlidir?

### MEŞƏLƏRİN QIRILMASI SEL RİSKİNİ ARTIRIR

Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov bildirib ki, sel riskinin artmasının müxtəlif səbəbləri var: "Burada həm təbii, həm də antropogen amillər mühüm rol oynayır. Antropogen amillərdən biri dağ yamaclarında və dağ dərələrində meşələrin qırılmasıdır. Bu zaman yağıntı suları torpağa kifayət qədər hopmur və səth üzrə sürətlə hərəkət edərək selin gücünü artırır".

Ekspert qeyd edib ki, sel adi daşqından fərqlənir. Belə ki, sel yalnız sudan ibarət olmur, özü ilə böyük miqdarda daş, qum, torpaq, ağac və digər materialları da gətirir. Bu isə sel kütləsinin dağıdıcı gücünü əhəmiyyətli dərəcədə böyüdür.

S.Səfərovun sözlərinə görə, son dövrlərdə digər mühüm risk amili qısa müddətdə düşən intensiv yağıntıların artmasıdır: "Qlobal istiləşmə atmosferdə rütubət dövranını sürətləndirir. Nəticədə əvvəllər 24 saat ərzində düşən yağıntı indi iki saat ərzində düşə bilər".



### AZƏRBAYCANDA ƏSAS TƏHLÜKƏ YAĞIŞ SELLƏRİDİR

Ekspert Nepalda baş verən sel hadisəsinin Azərbaycan üçün birbaşa müqayisə ediləcək nümunə olmadığını vurğulayıb. Onun sözlərinə görə, Nepalda relyef, buzlaqlar və musson yağışları kimi amillərin eyni vaxtda təsir göstərməsi hadisəni daha fərqli və dağıdıcı xarakterə gətirib. "Nepalda baş verən hadisə unikaldır. Orada yüksək dağlıq ərazilərdə böyük həcmdə daimi buzlaqlar mövcuddur. Qlobal istiləşmə nəticəsində buzlaqların əriməsi müşahidə olunur. Yayılan görüntülərdən də görünür ki, zirvədən böyük bir buz parçası qoparaq aşağı doğru hərəkət edir. Bununla yanaşı, buz kütləsi özü ilə iri daşları, torpağı, qumu və ağacları da aşağıya doğru aparır. Beləliklə, sel kütləsi hərəkət etdikcə daha da böyüyür və dağıdıcı gücü artır. Azərbaycanda isə Nepalda baş verən miqyasda buzlaq mənşəli selin yaranması ehtimalı çox aşağıdır. Buna səbəb ölkənin dağlıq ərazilərində belə böyük və sabit buzlaq örtüyünün olmamasıdır. Bizim ölkədə əsasən yağıntılarla əlaqədar yaranan sellər müşahidə olunur. Lakin bu, ölkəmizdə güclü sel təhlükəsinin olmadığı anlamına gəlmir. Yağıntıların intensivliyindən və dağlarda toplanan sel kütləsindən asılı olaraq Azərbaycanda da çox güclü və dağıdıcı sellər baş verə bilər", - deyə ekspert bildirib.

O, Azərbaycanın tarixində də ağır sel hadisələrinin baş verdiyini xatırladıb. Alimin sözlərinə görə, 1907-ci ildə Şəki ərazisində Şin çayında baş verən güclü sel nəticəsində yaşayış məntəqələrindən biri tamamilə dağılıb və böyük insan tələfatı qeydə alınıb.



Səid Səfərov



Əsgər Məmmədov

## ERKƏN XƏBƏRDARLIQ ƏSAS ŞƏRTDİR

Sel təhlükəsinin qarşısının tam alınmasının mümkün olmadığını deyən S.Səfərov hesab edir ki, əsas məqsəd belə hadisələrin insan itkisi və ciddi maddi zərərlə nəticələnməsinin qarşısını almaq olmalıdır. Ekspertin fikrincə, bunun üçün ilk növbədə erkən xəbərdarlıq sistemləri gücləndirilməlidir: "Azərbaycanda hidrometeoroloji xidmətin tərkibində dörd radar fəaliyyət göstərir. Onların üçü Doppler radarlarıdır. Bu sistemlər vasitəsilə yağıntıların miqdarını əvvəlcədən müəyyənləşdirmək və hava proseslərini izləmək mümkündür".

S.Səfərovun sözlərinə görə, radar müşahidələri ilə yanaşı, sel riski olan ərazilərdə əvvəlcədən çöl tədqiqatlarının aparılması da vacibdir. Belə araşdırmalar nəticəsində dağ yamaclarında və çay hövzələrində nə qədər sel kütləsinin toplana biləcəyi müəyyənləşdirilə bilər.

S.Səfərov digər vacib tədbirlər sırasında qoruyucu bəndlərin çəkilməsini, çay məcralarının möhkəmləndirilməsini və meşələrin bərpasını göstərib. Onun sözlərinə görə, bitki örtüyü yağıntı sularının sürətini və torpaq eroziyasını azaltmaqla selin gücünün zəifləməsinə kömək edir.

### GÜCLÜ SEL GÖZLƏNİLƏ BİLƏR

Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin professoru Əsgər Məmmədov da hesab edir ki, Azərbaycanda güclü sel hadisələrinin baş verməsi mümkündür. Amma Nepalda baş verən hadisənin eyni formada Azərbaycanda təkrarlanması gözlənilmir: "Aran rayonlarında belə hadisələrin baş verməsi ehtimalı çox azdır. Nepaldakı hadisənin eyni formada Azərbaycanda təkrarlanması mümkün deyil. Lakin sürüşmələrlə müşayiət olunan sel hadisələri baş verə bilər".

Ə.Məmmədovun sözlərinə görə, Azərbaycanda sel təhlükəsi əsasən dağlıq ərazilər üçün aktualdır. Xüsusilə çayların keçdiyi ərazilərdə və torpaq qruntlarının dayanıqlığının zəif olduğu zonalarda risk daha yüksəkdir. "Kiçik Qafqaz zonasında çayların keçdiyi ərazilərdə sel yaranma ehtimalı böyükdür. Bu, torpaq qruntlarının kövrək və dayanıqlığının zəif olması ilə də əlaqədardır. Böyük Qafqazda da belə hadisələr baş verə bilər. Quba-Zaqatala zonası bu baxımdan riskli ərazilər sırasındadır".

Ekspert hesab edir ki, selin fəsadları ilə mübarizədə hadisədən sonra görülən tədbirlərdən daha çox, qabaqlayıcı hazırlıq işlərinə üstünlük verilməlidir. Onun sözlərinə görə, xüsusilə sel təhlükəsi barədə erkən xəbərdarlıq və əhalinin təhlükəli ərazilərdən vaxtında təxliyəsi həyati əhəmiyyət daşıyır: "İnsanlar hava proqnozlarına və verilən xəbərdarlıqlara hazır olmalıdırlar".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



## Yerli kolbasa istehsalının artmasında idxal məhsulları ilə qiymət fərqi rol oynayır

# BAHA ƏT, UCUZ KOLBASA

Azərbaycanda kolbasa istehsalı ilin ilk 7 ayında 12,4 faiz artıb. Ekspertlər artımı istehlakçı tələbinin dəyişməsi, yerli məhsulların qiymət üstünlüyü, idxal xammalından istifadə və istehsal proseslərinin optimallaşdırılması ilə izah edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanda kolbasa istehsalı artır. Ətin bahalaşması fonunda bu artım xüsusilə diqqət çəkir. 2026-cı ilin yanvar-iyul aylarında ölkədə 19 min 601 ton kolbasa məmulatı istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz çoxdur. Üstəlik, avqustun 1-nə hazır məhsul ehtiyatlarının 25,23 faiz azalması bazarda istehsal olunan məhsula tələbin də artdığını göstərir. Bəs kolbasaya tələbatın artması nə ilə əlaqədar ola bilər? İstehlakçı daha münasib qiymətli məhsula yönəlib, yoxsa yerli istehsal idxalı sıxışdırmağa başlayıb?

### "KOLBASA MƏHSULLARININ TƏRKİBİ YALNIZ ƏTDƏN İBARƏT DEYİL"

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, ötən ilin eyni dövrü ilə müqayisədə kolbasa və kolbasa məhsullarının qiymətində artım müşahidə olunsa da, istehlakçı davranışında da müəyyən dəyişikliklər baş verib: "Eyni zamanda, qlobal bazarda inflyasiya tempinin yüksəlməsi idxal olunan məhsulların qiymətlərinə də təsir göstərib. İlk növbədə istehlakçı davranışındakı dəyişikliyə və artan ət qiymətlərinə diqqət yetirmək lazımdır. Ətin qiymətinin mütəmadi artması nəzəri olaraq kolbasa və kolbasa məhsullarının qiymətinə də təsir göstərməlidir. Hazırda sümüksüz ətin qiyməti 20 manatdan yuxarı olduğu halda, kolbasa məhsullarının qiyməti təxminən 8–12 manat arasında dəyişir. Amma nəzərə almaq lazımdır ki, kolbasa məhsullarının tərkibi yalnız ətdən ibarət deyil. Onların istehsalında quş əti və digər komponentlərdən də istifadə olunur".

### "İSTEHSAL YALNIZ YERLİ XAMMALLA MƏHDUDLAŞMIR"

G.Hüseynovanın fikrincə, istehlakçı davranışa təsir edən digər amil kolbasa, sardelka, sosis və digər məhsulların hazırlanmasının daha rahat olmasıdır. Bu məhsulların istifadəsi istehlakçıya vaxt qazandırır: "Bundan əlavə, idxal və yerli məhsulların qiymətlərini müqayisə etdikdə aralarında ciddi fərq olduğu görünür. Bu da təbii olaraq yerli istehsala tələbin artmasına şərait yaradır. İstehlakçıların bu məhsullara tələbatı xüsusilə yaz və yay aylarında arta bilər. Ət qıtlığı və qiymət artımı şəraitində kolbasa istehsalı yalnız yerli xammalla məhdudlaşmır. Digər ölkələrdən diri heyvan və ya kəsilmiş ət formasında idxal həyata keçirilir".



Günay Hüseynova

### "İstehsalın artması istehlakçı tələbi ilə əlaqədardır"

İqtisadçı bildirdi ki, yerli istehsalın artmasında idxal məhsulları ilə qiymət fərqi də rol oynayır: "Alıcı daha münasib qiymətli məhsula yönəlir və bu da həmin məhsulun istehsal həcminin artmasına şərait yaradır. Əgər yerli məhsul alıcının tələbinə, məmnuniyyətinə və büdcəsinə uyğundursa, bu, idxalın azalmasına təsir göstərə bilər. 2026-cı ilin yanvar-iyul aylarının statistik göstəricilərinə əsasən, idxal da, anbarlarda məhsul ehtiyatı da azalıb, istehsal isə artıb. Bu da istehlakçı davranışının dəyişdiyini və tələbin yüksəldiyini göstərir. Bununla belə, məhsul istehsalının artmasını sırf idxalın azalması ilə əlaqələndirmək olmaz. Əgər vitrindəki məhsulun qiyməti alıcının büdcəsinə uyğun deyilsə, sahibkar da xaricdən idxalı azalda bilər. Kolbasa və kolbasa məhsulları xüsusi saxlanma şəraiti tələb edir və tez xarab olur. Bu səbəbdən belə məhsullar uzun müddət vitrində saxlanıla bilməz. Əgər alıcının tələbi yerli məhsula deyil, idxal məhsuluna yönəlsəydi, yerli istehsalın azalması ehtimalı yüksək olardı".

### "DONDURULMUŞ VƏ İDXAL OLUNAN ƏTLƏRDƏN İSTİFADƏ OLUNUR"

Sənaye mühəndisi Sayat Quliyeva isə bildirdi ki, Azərbaycanda kolbasa istehsalının artması ilk növbədə bazarın tələbinə uyğun məhsul çeşidlərinin genişləndirilməsi və emal proseslərinin optimallaşdırılması ilə əlaqələndirilməlidir: "Burada mövsümi amillərin də rolu var. Ət xammalının bahalaşması istehsal həcminin artırılması üçün mütləq maneə deyil. Müəssisələr xammal tədarükünü optimallaşdırmaq, resepturanı düzgün balanslaşdırmaq, istehsal itkilərini azaltmaq və avadanlıqların məhsuldarlığından daha səmərəli istifadə etməklə xərcləri kompensasiya edə bilərlər. Burada əsas məqsəd daha çox məhsul istehsal etməkdən çox, hər kiloqram məhsul üzrə maya dəyərinə və marjaya nəzarət etməkdir. Hazırda 20–22 manat qiymətində olan ətlər kolbasa istehsalında istifadə edilmir. İstehsalda əsasən dondurulmuş və idxal olunan ətlərdən istifadə olunur ki, bu da xammal qiymətlərinin kəskin artmasının qarşısını müəyyən qədər alır". S. Quliyevanın qənaətincə, ümumilikdə ət istehsalındakı vəziyyət kolbasa sektoruna birbaşa təsir edir: "Xammalın təklifi və qiyməti dəyişdikcə istehsalçının maya dəyəri, tədarük strategiyası və istehsal planlaması da dəyişir. Ət xammalında çatışmazlıq isə maya dəyərinə təzyiq yaradır. Belə vəziyyətdə istehsalçı keyfiyyəti qorumaqla məhdud resurslardan maksimum məhsuldarlıq əldə etməyə çalışır. İşçi sayının optimallaşdırılması, qablaşdırma və digər əlavə xərclərin azaldılması kimi tədbirlər görülə bilər. Lakin resepturaya həddindən artıq müdaxilə məhsulun keyfiyyətinin və qida təhlükəsizliyinin pisləşməsinə səbəb olur".

### "OPTİMALLAŞDIRILMA XAMMAL XƏRCLƏRİNİ DƏ AZALDIR"

Müsahibimizin fikrincə, xammalın strukturunun dəyişməsi də istehsal həcminə təsir göstərir: "Ətin yağ və zülal nisbəti düzgün balanslaşdırıldıqda məhsulun su bağlama qabiliyyəti və emulsiya stabilliyi artır. Bu, termiki emal zamanı itkiləri azaldır, hazır məhsulun çıxımını yüksəldir və eyni miqdarda xammaldan daha çox məhsul əldə etməyə imkan verir. Düzgün yağ-zülal balansı və istehsal prosesinin optimal şəraitdə aparılması məhsul çıxımını artırır, nəticədə 1 kiloqram hazır məhsula düşən xammal sərfi azalır. Bununla belə, optimallaşdırma məhsulun keyfiyyəti və qida təhlükəsizliyi tələblərinə uyğun aparılmalıdır".



Sayat Quliyeva

# KÖRPƏ ARZUSUNDAKI BÜDCƏ QORXUSU

## Uşaq saxlanılması və ailə planlaması məsələsində görünməyən əlavə xərclər ailə büdcəsinə kəskin təsir edir. Uşaq böyüdərkən çəkilən xərclər yalnız standart qida və geyimlə bitmir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda doğum sayının azalması son illərdə demoqrafik gündəmin əsas məsələlərindən birinə çevrilib. Dövlət Statistika Komitəsinin açıqladığı statistik rəqəmlərdə ölkədə doğulan körpələrin sayının ilbəil azaldığı aydın şəkildə nəzərə çarpır. İllik göstəricilərə nəzər saldıqda, 2024-cü ildə ölkə üzrə 102 310 doğulan körpə qeydə alındığı halda, 2025-ci ildə bu rəqəm azalaraq 95 875-ə düşüb.

### GƏNCLƏRİ DÜŞÜNDÜRƏN ƏSAS MƏQAM

Bu tendensiyanın səbəbləri sırasında uşağın dünyaya gəlməsi və böyüdülməsinin ailə büdcəsinə yaratdığı maliyyə yükü də göstərilir. Gənclər arasında apardığımız sorğular nəticəsində məlum olur ki, onları qorxudan əsas məqam uşağa çəkilən xərclərdir.

İki uşaq sahibi olan Elmir deyir ki, 10 il öncə ilə indiki xərclər eyni deyil: "10 il əvvəl uşaq böyütməyin qayğıları başqa idi, indiki qədər maliyyə yükü yaratmırdı. Böyük uşağımız böyüyəndə büdcəni planlamaq daha rahat idi. Gündəlik ehtiyaclar, geyimi, arabir həkim müayinəsi ailənin cibinə bu dərəcədə təsir etmirdi. İndi isə xərc addımbaşı hiss olunur. Bu gün bir uşağın normal qidalanması, bağça ödənişi, xəstələnəndə aptek xərcləri, üzərinə də oyuncaq və dəftərxana ləvazimatlarını gələndə aylıq xərc bəzən 1000 manata qədər çıxır".

Maraqlıdır, Azərbaycanda orta gəlirli ailə üçün yeni doğulan uşağın xərci nə qədərdir?

### HAMİLƏLİK VƏ İLK HAZIRLIQ

Xərclər hamiləlik dövründən başlayır. Hamiləlik müddətində həkim müayinələri, doğuş, körpənin ilkin ehtiyacları, tibbi xidmətlər, geyim, qida və digər xərclər ailənin büdcəsinə təsir edir.

Ölkədə tətbiq olunan İcbari Tibbi Sığorta (İTS) çərçivəsində dövlət tibb müəssisələrində hamiləliyin təqibi, standart laborator analizlər, ultrasəs müayinələri (USM) və doğuş əməliyyatı (həm təbii, həm də tibbi göstərişlə qeysəriyyə) tam pulsuz həyata keçirilir. Bu xidmətlər dövlət xəstəxanalarını seçən ailələrin tibbi yükünü gözəçarpan dərəcədə azaldır. Buna baxmayaraq, sığorta zərfinin əhatə etmədiyi və birbaşa ailə büdcəsindən qarşılanan ciddi xərc maddələri qalmaqdadır. Özəl tibb müəssisələrinə müraciət edildikdə həkim mütəxəssis qəbulu 50-120 AZN, USM müayinələri 40-90 AZN, özəl klinikalarda doğuş paketləri isə 1 200-3 500 AZN arasında dəyişən əlavə ödəniş tələb edir. Dövlət xəstəxanasında belə xüsusi həkim seçimi sığortaya daxil deyil. Hamiləlik dövründə təyin olunan vitaminlər, dəmir preparatları, dərmanlar (aylıq 80-180 AZN) və bəzi xüsusi genetik testlər sığorta tərəfindən ödənilmir. Sığorta mexanizmi yalnız tibbi xidmətləri əhatə etdiyindən, körpənin ilkin ehtiyacları - uşaq arabası (250-1 200 AZN), beşik (200-800 AZN), geyim və yataq dəstləri (150-400 AZN) birdəfəlik böyük kapitallaşma tələb edir.

Nəticədə, İTS tibbi baxımdan baza dəstəyi təmin etsə də, xüsusi tibbi xidmət üstünlükləri, aptek xərcləri və körpənin ilkin təchizatı uşaq dünyaya gəlməmişdən öncə ailə üçün minimum 1 200-3 500+ AZN civarında qaçılmaz bir maliyyə öhdəliyi yaradır. Daha bahalı klinikalar və premium məhsullar seçildikdə bu məbləğ əhəmiyyətli dərəcədə arta bilər.

### KÖRPƏNİN İLK İLİ: BÜDCƏDƏ ƏN BÖYÜK SINAQ

Əvvəlcə uşağın istifadə etdiyi məhsullar, gigiyena vasitələrinin bazar qiymətlərini araşdırdıq. Uşaq bezlərinə ayda minimum 60-100 manat, gigiyena vasitələrinə 30-70 manat, geyimə 30-80 manat, dərman və digər tibbi ehtiyaclara isə orta hesabla 30-100 manat xərclənə bilər. Orta gəlirli ailə üçün körpənin gündəlik ehtiyaclarını nəzərə aldıqda, ilk il ərzində xərclər kifayət qədər geniş diapazonda dəyişir. Körpənin ana südü ilə qidalanması ailənin xərclərini müəyyən qədər azalda bilər. Əks halda süni qida üçün aylıq əlavə 100-250 manat və daha çox vəsait tələb olunur. Orta hesabla bir uşağa ayda 400-450 manat civarında xərc formalaşır. Bu isə bir il ərzində təxminən 4 800-5 400 manat deməkdir.



## "Görünməyən əlavə xərclər ailə büdcəsinə kəskin təsir edir"

İqtisadçı-ekspert Rauf Qarayev bildirir ki, uşaq saxlanılması və ailə planlaması məsələsində görünməyən əlavə xərclər ailə büdcəsinə kəskin təsir edir. Ekspertin sözlərinə görə, uşaq böyüdərkən çəkilən xərclər yalnız standart qida və geyimlə bitmir. Buraya xəstəliklər zamanı lazımi dərmanlar, həkim müayinələri, nəqliyyat xərcləri, özəl bağça ödənişləri, dəftərxana ləvazimatları və gündəlik gigiyenik ehtiyaclar daxildir. Mütəxəssis körpənin ən minimal günlük ehtiyaclarını bazarın ən ucuz qiymətləri ilə hesablayır: "Günə 5 ədəd istifadə olunan və bir ədədi 0.50 AZN olan uşaq bezi ayda 75 manat, günə 12 ədəd hesabı ilə ayda 3 paket işlədilən 120 ədədlik nəm salfet 9 manat təşkil edir. Bunun üzərinə 90 qramlıq uşaq sabunu üçün 4.50 manat (3 ədəd), 200 ml şampun üçün 7.50 manat (3 ədəd), diş fırçası üçün 3.10 manat, uşaq geli üçün 4 manat əlavə olunur. Qida tərəfində isə 300 qramlıq ən ucuz uşaq yeməyindən ayda 18 ədəd istifadə edildikdə 207 manat, həftədə 4 ədəd alınan kəsmik-banan üçün isə ayda 27 manat xərc yaranır. Beləliklə, uşağın gigiyena, qulluq və qida ləvazimatları aylıq 337 manat təşkil edir".



Rauf Qarayev

İqtisadçı qeyd edir ki, bu baza xərclərinin üzərinə uşağın ehtimal olunan həkim-dərman xərcləri, geyimi, bağça və nəqliyyat ödənişləri də əlavə edildikdə, bir uşağın saxlanılması üçün minimum 800 manat civarında aylıq məbləğ yaranır və valideynlərin imkanlarından asılı olaraq bu rəqəm dördrəqəmli ədədlərə qədər yüksələ bilir. İqtisadçının fikrincə, bu ağır maliyyə yükü cəmiyyətdə ciddi sosial-demoqrafik dəyişikliklərə yol açır, insanları ailə qurmaqdan çəkindirir, evlənənləri yalnız bir uşaqla kifayətlənməyə sövq edir və ya bəzilərinin ümumiyyətlə subay həyat tərzini seçməsinə səbəb olur. 2026-cı ilin ilk aylarında Azərbaycanda orta aylıq nominal əməkhaqqı təxminən 1 172 manat olub. Əgər körpənin orta aylıq birbaşa xərcini minimum 350 manat götürsək, bu məbləğ orta əməkhaqqının təxminən 30 faizinə bərabərdir. Başqa sözlə, orta əməkhaqqı alan bir şəxsin qazancının təxminən üçdə biri yalnız körpənin əsas aylıq ehtiyaclarına gedə bilər.

AZƏRBAYCANDA ŞƏKƏR İSTEHSALI VƏ İDXALI MƏSƏLƏSİ YENİDƏN AKTUALLAŞIB

# ŞƏKƏRİN "ŞİRİN" DÖVRÜ BİTİR

Dünya bazarında şəkərin qiyməti son bir ayda 25 faiz artaraq kəskin sıçrayış edib. Xam şəkəri əsasən Braziliya və Rusiyadan idxal edən Azərbaycanda da qlobal bahalaşmanın təsirləri özünü göstərəcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Dünya şəkər bazarında təkliflə bağlı narahatlıqlar qiymətlərin sürətlə artmasına səbəb olub. Avropada yeni mövsümdə istehsalın azalacağı ilə bağlı gözləntilər fonunda xam şəkərin qiyməti son dörd həftədə təxminən 25 faiz yüksəlib. Aİ-də şəkər istehsalının 19 faiz azalacağına dair proqnozlar və Hindistanın gözlənilməz şəkildə şəkər idxalına başlaması da bazarda qiymət təzyiqini artırıb. Bəs dünyada şəkərin qiymətinin bahalaşması ölkəmizə təsir edə bilərmi?

### ŞƏKƏR XAMMALI ÜZRƏ XARİCİ TƏDARÜKÇÜLƏRDƏN ASILIYIQ

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, dünya şəkər bazarında təkliflə bağlı yaranan narahatlıqlar Azərbaycanda da şəkər istehsalı və idxalı məsələsini yenidən aktuallaşdırıb. Ölkəmizin şəkər bazarının formalaşmasında həm yerli istehsal, həm də xarici idxal bir-birini tamamlayan rol oynayır: "Hazırda ölkənin şəkər və xüsusilə də xam şəkər tələbatının çox əhəmiyyətli bir hissəsi məhz idxal hesabına ödənilir. Bu asılılıq qlobal bazarlardakı hər hansı qiymət dalğalanmasının daxili pərakəndə bazara təsir riskini qaçılmaz edir. Daxili istehsal artımına baxmayaraq, Azərbaycan şəkər xammalı üzrə xarici tədarükçülərdən hələ də ciddi şəkildə asılıdır. 2024-cü ildə ölkəyə 161 milyon dollar dəyərində 274 min ton xam şəkər idxal olunub. Xammalın mütləq əksəriyyəti, yəni 256 min tonu birbaşa Braziliyanın payına düşüb. Hazır şəkər idxalında isə Azərbaycanın ən ənənəvi və əsas tərəfdaşı Rusiyadır. Yenə 2024-cü ilin məlumatlarına əsasən, ölkəyə 21,2 milyon dollar dəyərində 33 min ton hazır şəkər gətirilib ki, bunun da 31 min tonu məhz Rusiya bazarından alınıb".

İqtisadçının fikrincə, hazırkı mərhələdə qlobal şəkər bazarında qiymətlərin kəskin yüksəlməsi tendensiyası müşahidə olunur və məhz bu spesifik idxal strukturu dünya bazarındakı qiymət dəyişikliklərinin Azərbaycan bazarına birbaşa təsir imkanlarını daha da artırır: "Xüsusilə də xam şəkərin əsas etibarilə xaricdən gətirilməsi fonunda, qlobal qiymət artımının İmişli Şəkər Zavodunda formalaşan yerli istehsalın maya dəyərini yüksəltməsi qaçılmaz bir riskə çevrilir. Dünya bazarında qiymətlərin yüksəlməsi ilə paralel olaraq, qlobal miqyasda müşahidə edilən beynəlxalq logistika və daşınma xərclərinin artması da idxal olunan həm xam, həm də hazır məhsulun daha da bahalaşmasına zəmin yaradır".

## "Daxili aqrar istehsal gücləndirilməlidir"

R.Qarayev bildirdi ki, bu təsirləri minimuma endirməyin və bazar sabitliyini qorumağın ən real yolu isə daxili aqrar istehsalın gücləndirilməsidir. Ölkədə şəkər çuğunduru əkinlərinin artırılması idxaldan asılılığın müəyyən qədər azaldılması baxımından həyati əhəmiyyət daşıyır: "Rəsmi statistika göstərir ki, 2024-cü ildə Azərbaycanda 289,1 min ton şəkər çuğunduru istehsal edilib və bu, əvvəlki illə müqayisədə 31,5 faiz çoxdur. Bu müsbət və ümidverici tendensiya cari ildə də özünü göstərir. Belə ki, 2026-cı ilin ilk iki ayında ölkə üzrə 315 hektar ərazidə şəkər çuğunduru əkilib və bu göstərici illik müqayisədə 53 faiz artım deməkdir. Qlobal şəkər bazarındakı son təlatümlərin və struktur dəyişikliklərinin Azərbaycandakı pərakəndə qiymətlərə müəyyən qədər təsiri gözlənilən reallıqdır. Lakin bu təsirin son səviyyəsi və miqyası təkcə dünya birjalarındakı qiymətlərlə deyil, eyni zamanda mövcud idxal müqavilələrinin kommersiya şərtləri, beynəlxalq logistika xərclərinin dinamikası, daxili xammal istehsalının həcmi, enerji və yanacaq qiymətləri, eləcə də kənd təsərrüfatı məhsuldarlığına birbaşa təsir edən qlobal hava şəraiti kimi çoxsaylı kompleks amillərlə müəyyənləşəcək".

## "Qiymət artımının dərhal özünü göstərməsi gözlənilmir"

İqtisadçı Xalid Kərimli də düşünür ki, dünya bazarında şəkərin bahalaşması tədricən Azərbaycan bazarında da təsirini göstərəcək: "Qlobal birjalardakı kəskin qiymət artımının ölkə daxilində dərhal özünü göstərməsi gözlənilmir. Bunun əsas səbəbi idxal əməliyyatlarının əvvəlcədən bağlanmış uzunmüddətli müqavilələr əsasında həyata keçirilməsidir. Mövcud müqavilələr üzrə öhdəliklər köhnə qiymətlərlə yerinə yetirildikdən sonra formalaşacaq yeni sifarişlər artıq daha yüksək qiymətlərlə rəsmiləşdiriləcək. Məhz buna görə də dünya bazarında qiymətlərin uzun müddət yüksək səviyyədə qalması müəyyən bir gecikmə ilə – ehtiyatlar yeniləndikcə daxili bazardakı pərakəndə satış qiymətlərinə təsir edəcək".




X.Kərimlinin fikrincə, Azərbaycanın şəkər təminatında Rusiya əsas istiqamətlərdən biri hesab olunur. Təbii olaraq, dünya bazarındakı bahalaşma dalğası Rusiyadakı daxili qiymətlərə də təsirsiz ötüşmür və bu qiymət artımı zəncirvari şəkildə Azərbaycanın idxal xərclərini artırır: "Ölkə daxilində yerli şəkər istehsalı müəssisələri fəaliyyət göstərsə də, onların ümumi istehsal həcmi ölkənin daxili tələbatını tam şəkildə ödəmək gücündə deyil. Daxili tələbatın əhəmiyyətli hissəsinin idxal hesabına qarşılanması səbəbindən qlobal bazarlardakı və tədarükçü ölkələrdəki qiymət dəyişiklikləri bilavasitə yerli bazarda öz əksini tapır".

### "ŞİRNİYYATLAR DA BAHALAŞACAQ"

İqtisadçının sözlərinə görə, gözlənilən bahalaşmanın mənfi təsirləri yalnız birbaşa istehlak edilən şəkər tozu və ya qəndlə məhdudlaşmayacaq: "Şəkər qida sənayesində, xüsusilə də şokolad, konfet, peçenye və müxtəlif növ digər qənnadı məhsullarının istehsalında ən əsas xammal komponentlərindən biri hesab olunur. Şəkərin maya dəyərinin yüksəlməsi istər-istəməz həmin şirniyyat məhsullarının da istehsal xərclərini artıracaq və son nəticədə rəflərdəki qiymətlərə yuxarıya doğru ciddi təzyiq yaradacaq".

Milli Ordunun yaradılmasında xüsusi rolu olan general-mayor Murad Gəray bəy Tlexas haqqında

# İSTİQLAL ORDUSUNUN FƏDAKAR SƏRKƏRDƏSİ

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yaradılmasında müstəsna xidmətləri olanlardan biri də çərkəz əsilli hərbi sərkərdə, general-mayor Murad Gəray bəy Tlexasdır. O, bolşevik işğalından sonra edam edilib.

RAFİK SƏFƏROV

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Milli Ordunun yaradılmasında mühüm rolu və xidməti olmuş hərbi sərkərdələrdən biri də çərkəz əsilli Murad Gəray bəy Tlexasdır. O, Rusiyadakı Mixail Artilleriya Məktəbini bitirib. Həmin məktəbi bitirdikdən sonra Rusiyanın bir sıra bölgələrində xidmət edib. 1912-1913-cü illərdə Rusiyanın artilleriya briqadasında kapitan rütbəsinə yüksəlib. I Dünya müharibəsində və Port-Artur uğrunda gedən döyüşlərdə iştirak edib.

### ARTİLLERİYA ŞÖBƏSİNİN RƏİSİ TƏYİN EDİLİR

Murad Gəray bəy Azərbaycanda milli tərkibli qoşun hissələrinin sıralarında xidmət etməyə Azərbaycanda müsəlman korpusunun yaradılmasından sonra başlayıb. 1918-ci il noyabrın 15-də AXC hərbi nazirinin müavini, artilleriya generalı Səməd bəy Mehmandarov nazirliyin baş ştabının və dəftərxanasının yaradılması haqqında əmr imzalayıb. Həmin əmrdə qeyd edilirdi ki, baş ştabın artilleriya şöbəsinin idarə edilməsi general-mayor Tlexasa tapşırılır.

Səməd bəy Mehmandarov 1919-cu il yanvarın 3-də hərbi hissələrin ştatlarının işlənib hazırlanması üzrə nazir müavini Şıxlinskinin sədrliyi ilə komissiyanın yaradılması haqqında əmr imzalayır. Həmin əmrə uyğun olaraq, yaradılacaq komissiyanın tərkibinə dövrün görkəmli sərkərdələri, o cümlədən baş ştabın rəisi polkovnik Səlimov və intendant idarəsinin rəisi polkovnik Serebrennikov, atlı diviziyanın rəisi, general-mayor Qacar, artilleriya idarəsinin rəisi general-mayor Tlexas və digərləri daxil edilib.

### BAKININ HƏRBİ GENERAL-QUBERNATORU OLUR

Hərbi Şuranın 3 sentyabr 1919-cu il tarixli iclasında Baş artilleriya idarəsinin və Gəncə hərbi zavodunun ştatlarının təsdiq edilməsi və xaricdən ordunun ehtiyaclarını ödəmək üçün lazımi təminatların əldə edilməsi məsələlərinə baxılır. İclasda nazir müavini olan artilleriya generalı Şıxlinski, ali ştabın rəisi general-leytenant Sulkeviç, müvəqqəti olaraq baş ştabın rəisi vəzifəsini icra edən general-mayor Qaytabaşı, mühəndislik idarəsinin rəisi general-leytenant Tarxanov və artilleriya idarəsinin rəisi general-mayor Tlexas iştirak edirlər.

1919-cu il sentyabrın 13-də general-mayor Tlexas hərbi nazirin təqdimatı ilə Dövlət Müdafiə Komitəsi tərəfindən Bakı İstehkamçılar hissəsinin rəisi təyin olunur. O, bu vəzifə ilə yanaşı, Bakının hərbi general-qubernatoru vəzifəsini də öz üzərinə götürür. Bu struktur Denikin təhlükəsinin mövcud olduğu müddətdə şəhərin müdafiəsini təşkil etməli və sabitliyi qorumalı idi. Tlexasın rəhbərliyi ilə Bakının qurudan və dənizdən müdafiəsi üçün konkret tədbirlər planı hazırlanır, şəhər ətrafında müdafiə zolaqları qurulur.

### SƏMƏD BƏY MEHMANDAROV ŞƏXSƏN TƏŞƏKKÜR EDİR

Həyata keçirilmiş tədbirlər nəticəsində Gürcüstandan hərbi texnikanın və silahların əldə edilməsi mümkün olur. Nazir Səməd bəy Mehmandarovun 19 sentyabr 1919-cu il tarixli əmri ilə Gürcüstandan hərbi texnika və silah əldə etmiş komissiyanın üzvlərinə təşəkkür elan edilir. Bildirilir ki, bir sıra ciddi manеələrin olmasına baxmayaraq, qısa müddət ərzində olduqca böyük əhəmiyyət kəsb edən müxtəlif silahların və hərbi texnikanın əldə edilməsinə nail olunub. Son dərəcə sərfəli qiymətlərlə texnika və silah alınıb və Gəncə və Bakıya çatdırılıb. Əldə olunan silahların əksəriyyəti tamamilə yeni olub. Səməd bəy Mehmandarov bu uğurlu fəaliyyətə görə general-mayor Tlexasa şəxsən minnətdarlığını bildirib.





## Bir illik yorulmaz fəaliyyət

Səməd bəy Mehmandarovun 4 dekabr 1919-cu il tarixdə imzaladığı əmrlə də Tlexasa vicdanlı xidmətinə görə təşəkkür elan edilib: "Artilleriya idarəsinin rəisi general-mayor Tlexas vəzifəyə hələ Hərbi Nazirliyin təzə yarandığı vaxtdan, yəni hələ ordunun və onun idarə orqanlarının olmadığı dövrdən etibarən təyin edilmişdir. Ordumuzun yaradılması işində mənim ən yaxın əməkdaşım general-mayor Tlexas olmuşdur. Mərd və fədakar insandır. Ordunun silahlanması, bütün Azərbaycan boyu kənara atılmış artilleriya anbarlarının və emalatxanalarının, avadanlıqlarının əldə edilməsi, həmin əmlakların yığılıb-toplanması sahəsində vicdanla çalışaraq müvafiq işlər görmüşdür. Hazırda adı çəkilən generalın qarşısında respublikamızın müdafiəsi üzrə yeni və son dərəcə vacib vəzifələr qoyulduğu üçün onun baş artilleriya idarəsinin rəisi vəzifəsindən azad edilməsini qərara aldım. Bir il ərzində tutduğu vəzifəni vicdanla və müvəffəqiyyətlə yerinə yetirdiyinə görə hörmətli Murad Gəraya xidmət adından dərin təşəkkürümü bildirirəm".

### BAKININ MÜDAFİƏSİ İLƏ BAĞLI ADDIMLAR ATIB

Ümumilikdə Tlexas fəaliyyəti dövründə Bakının müdafiəsi ilə bağlı diqqət çəkən addımlar atıb. Tarixi sənədlər təsdiq edir ki, Murad Gəray vətəni Azərbaycanın keşiyində daim mərdliklə dayanıb. 1920-ci ilin aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra ölkəmizin bir çox mərd və sadiq oğulları kimi Murad Gəray Tlexas da həbs olunur. Həmin ilin iyununda Cümhuriyyət Ordusunun 15-dən artıq tanınmış hərbi sərkərdəsi, o cümlədən general-mayor Tlexas edam ediliblər. Ölümlərindən 106 ildən artıq bir müddət keçməsinə baxmayaraq, onların xidmətləri unudulmur və xatirələri daim böyük hörmət və ehtiramla yad edilir.

# GECƏLƏR OYAQ, GÜNDÜZLƏR YORĞUN

Gənclər arasında yuxusuzluğun əsas səbəbləri sırasında gec saatlara qədər telefon və sosial şəbəkələrdən istifadə, stres, qeyri-müntəzəm həyat tərzi və kofein qəbulu göstərilir. Uzunmüddətli yuxu çatışmazlığı yaddaş, diqqət və psixoloji vəziyyətə mənfi təsir edir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son vaxtlar, xüsusilə gənclər arasında yuxusuzluq problemi gündəmə gəlir. Bəs gənclər arasında yuxusuzluğun yayılmasının əsas səbəbləri nələrdir? Uzunmüddətli yuxu çatışmazlığı hansı fəsadlara səbəb ola bilər və insan hansı hallarda mütəxəssisə müraciət etməlidir?

### "ƏSAS SƏBƏBLƏRDƏN BİRİ MÜASİR HƏYAT TƏRZİDİR"

Nevroloq Sevinc Mir Seyidin sözlərinə görə, son illərdə, xüsusilə gənclərdə yuxuya getməkdə çətinlik, gecə oyanmaları, səhər yorğunluğu, gündüz yuxululuğu, diqqət və yaddaş zəifliyi kimi şikayətlərə daha çox rast gəlinir. Əsas səbəblərdən biri müasir həyat tərzidir: "Dərs və işdən sonra sosial şəbəkələr, mesajlar, seriallar və oyunlar davam edir. Nəticədə yatmağa ayrılan vaxt azalır, beyin isə gecə saatlarında da müxtəlif stimullar qəbul edir. Qeyri-müntəzəm rejim də bioloji saatın ritmini poza bilər. Həftə içi səhər erkən oyanan gəncin həftəsonu gecə saat 3-4-də yatıb günorta qalxması sonrakı gecə vaxtında yuxuya getməyi çətinləşdirə bilər. Stres, imtahanlar, iş, maddi problemlər və gələcəklə bağlı narahatlıq da gecə beynin aktiv qalmasına səbəb olur. Bununla yanaşı, yuxu xəstəliyi ilə sadəcə yuxuya kifayət qədər vaxt ayırmamağı fərqləndirmək lazımdır. Məsələn, gecə saat 2-də yatıb səhər 7-də oyanan insanın gündüz yuxulu olması ilk növbədə cəmi beş saat yatması ilə bağlı ola bilər".




## "10 DƏQİQƏ BAXIB YATACAĞAM" DÜŞÜNCƏSİ

Nevroloq bildirdi ki, kofein və enerji içkiləri də problemi gücləndirir: "Gənc az yatdıqda yorğunluğu azaltmaq üçün kofein qəbul edir, axşam isə kofeinin təsiri yuxuya getməyi çətinləşdirir. Beləliklə, "az yuxu - daha çox kofein - daha pis yuxu" dövrü yaranır. Telefon və sosial şəbəkələrin təsirini yalnız mavi işıqla izah etmək düzgün deyil. Burada yatmağa ayrılan vaxtın azalması, beynin stimullaşması və ekran işığının bioloji ritmə təsiri rol oynayır. "10 dəqiqə baxıb yatacağam" düşüncəsi bəzən bir saata çevrilir. Qısa videolar, oyunlar və emosional xəbərlər də beynin sakitləşməsinə mane ola bilər. Ekran işığı melatonin ifrazını gecikdirə, bildirişlər, səs və vibrasiya isə yuxunu parçalaya bilər. Buna görə mavi işıq filtrindən istifadə edib gecə saat 2-yə qədər sosial şəbəkədə qalmaq problemi həll etmir".

### YUXUSUZLUĞUN FƏSADLARI

S.Mir Seyidin fikrincə, gecə saat 2.30-da yatıb səhər 7.00-da oyanan insan cəmi 4,5 saat yatmış olur. Bu rejim uzun müddət davam etdikdə yuxu çatışmazlığı yaranır: "Yuxu zamanı öyrənilən məlumatların emalı və yaddaşın möhkəmlənməsi kimi mühüm proseslər gedir. Yuxu çatışmazlığında diqqət və reaksiya sürəti zəifləyə, səhvlərin sayı arta bilər. Güclü yuxululuq zamanı mikroyuxu epizodları yarana və xüsusilə avtomobil idarə edənlər üçün qəza riskini artıra bilər. Yuxusuzluq yaddaş, yeni məlumatın mənimsənilməsi və qərarvermәni də zəiflədir. Uzunmüddətli qeyri-kafi yuxu immun sisteminə, arterial təzyiqə, çəkiyə və maddələr mübadiləsinə mənfi təsir göstərir. İştahanın tənzimlənməsi pozulur və yüksək kalorili qidalara meyl artır".

### PROBLEM HƏFTƏLƏRLƏ VƏ AYLARLA DAVAM EDİRSƏ...

Həkimin sözlərinə görə, bir neçə gecə pis yatmaq hər zaman xəstəlik demək deyil. Problem həftələrlə və aylarla davam edirsə, mütəxəssisə müraciət edilməlidir: "Xroniki insomniyada problemlər adətən həftədə ən azı üç dəfə, üç ay və ya daha uzun müddət davam edir. Güclü xoruldama, yuxuda nəfəsin dayanması, boğulma hissi ilə oyanma, səhər baş ağrısı və gündüz həddindən artıq yuxululuq yuxu apnesindən şübhələnməyə əsas verə bilər".

### "BİR ÇOX İNSANA 7-9 SAAT YUXU LAZIMDIR"

Həkimin fikrincə, yuxu rejimini bərpa etmək üçün hər gün eyni saatda oyanmaq, səhər təbii işıq almaq və gün ərzində fiziki aktiv olmaq vacibdir: "Telefon, planşet və kompüterdən yatmazdan ən azı 30-60 dəqiqə əvvəl uzaqlaşmaq yaxşı başlanğıcdır. Telefonu yataqdan uzaqda saxlamaq, kofeini yatmazdan ən azı 6 saat əvvəl dayandırmaq, yataq otağını qaranlıq və sakit saxlamaq da tövsiyə olunur. Yetkinlərin əksəriyyətinə gecə ən azı 7 saat, bir çox insana 7-9 saat yuxu lazımdır. Yeniyetmələrdə ehtiyac adətən 8-10 saatdır".



## YUXUSUZLUĞUN PSİXOLOGİYAMIZA DA MƏNFİ TƏSİRİ VAR

Psixoloq Aytən Ələkbərova isə düşünür ki, bu gün təkcə gənclər deyil, hətta yaşlı insanlar belə smartfonları əllərindən yerə qoymur, saatlarla ekran qarşısında qalaraq yuxusuzluqdan əziyyət çəkirlər: "Texnologiyanın həyatımıza və yataq otaqlarımıza qədər daxil olması yuxu rejiminə ciddi təsir göstərir. Belə nizamsız həyat tərzi psixoloji və koqnitiv problemlərin də dərinləşməsinə təsir göstərir. Bir gəncin səhərə qədər oyaq qalıb, qaranlıq otaqda saatlarla sosial şəbəkələrdə vaxt keçirməsi daxili təşvişin artmasına zəmin yaradır. Bu cür rejim xroniki yorğunluğa, zehni tükənmişliyə, stres və təşvişin yaranmasına gətirib çıxarır".

### "YUXUSUZ ANA, YUXUSUZ KÖRPƏ DEMƏKDİR"

A.Ələkbərovanın sözlərinə görə, gənclərin daha gec yatmasının səbəblərindən biri rəqəmsal dünyanın, xüsusilə sosial medianın güclü təsiri altında olmalarıdır: "İnsanlar davamlı informasiya axınına və qısa videolara o qədər alışıblar ki, uzun müddət bir proses üzərində diqqəti saxlamaq çətinləşir. Daxili təşviş və nəyisə qaçırmaq qorxusu da buna təsir göstərə bilər. Məhz buna görə bu problemlə mübarizədə psixoloji maarifləndirmə mühüm əhəmiyyət daşıyır. Xüsusilə hamilə qadınlara da yuxu rejiminin əhəmiyyəti izah edilməlidir. Gələcək ana bütün gecəni oyaq qalanda "onsuz da körpə bətnimdə yatır, bunun ona təsiri yoxdur" deyə düşünməməlidir".

Psixoloqun fikrincə, xroniki stress dərin yuxu pozuntularına və psixoloji problemlərin ağırlaşmasına səbəb olur: "Uzunmüddətli yuxu pozuntuları ilə depressiv əlamətlər, təşviş və digər psixoloji problemlər arasında da əlaqə ola bilər. Əgər ardıcıl olaraq 3-4 gün gecə saat 3-4-ə qədər yata bilmədiyinizi, yataqda narahat halda sağa-sola çevrildiyinizi, baş və çiyin ağrıları yaşadığınızı müşahidə edirsinizsə, mütəxəssisə müraciət etmək lazımdır".



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
5 SENTYABR ŞƏNBƏ 2026
www.kaspi.az

Dünya çempionu Lamin Yamal, rekordlar qıran Harri Keyn və mundialın bombardiri Kilian Mbappe əsas namizədlərdir. 30 nəfərlik namizədlər siyahısı tezliklə açıqlanacaq. Artıq indidən bu mövzuda qızğın müzakirələr gedir.

# “QIZIL TOP” UĞRUNDA AMANSIZ MÜBARİZƏ




Dünya futbolunun ən prestijli fərdi mükafatında finiş xəttinə yaxınlaşmışıq. “Qızıl Top” uğrunda budəfəki mübarizənin maraqlı tərəfi odur ki, cavabı əvvəldən bilmək mümkün deyil. Son illərdə mükafatın ətrafında müəyyən mərhələdə bir futbolçunun digərlərindən ciddi şəkildə fərqlənməsi adi hal almışdı. İndi səhnədə Lionel Messi və Kriştiano Ronaldonun yaratdığı uzunmüddətli hegemoniya mövcud deyil. 2025-ci ilin qalibi Usman Dembele olsa da, fransızın ardıcıl ikinci “Qızıl Top”u qazanması ehtimalı da dünya çempionatından sonra xeyli zəifləyib. İndi əsas mübahisə üç adın ətrafında gedir. Dünya çempionu Lamin Yamal, rekordlar qıran Harri Keyn və mundialın bombardiri Kilian Mbappe əsas namizədlərdir. 30 nəfərlik namizədlər siyahısı tezliklə açıqlanacaq. Lakin artıq indidən bu mövzuda qızğın müzakirələr gedir.

**RƏQƏMLƏR KEYNİ İŞARƏ EDİR**

“Qızıl Top”un sahibi yalnız statistik göstəricilərlə müəyyənləşsəydi, mübahisə çoxdan bitmişdi. Harri Keyn 2025/26 mövsümündə “Bavariya”da 73 qol və səkkiz məhsuldar ötürmə edib, Almaniyada çempionluq, ölkə kuboku və Super Kuboku qazanıb. 33 yaşlı forvard İngiltərə millisində isə dünya çempionatında altı dəfə fərqlənib. Üstəlik Çempionlar Liqasında 13 oyunda vurulan 14 qol da onun aktivini zənginləşdirir. Keynin ən böyük üstünlüyü məhz bütün mövsümü yüksək səviyyədə keçirməsidir.

Nəzərə alsaq ki, 2026-cı il dünya çempionatı ilidir və mundialda bir futbolçunun parlaması “Qızıl Top” tarixində həmişə üstünlüyün ona tərəf istiqamətlənməsinə səbəb olur. Keynin qarşısındakı əsas problem də elə dünya çempionatıdır. İngiltərə favoritlərdən sayılsa da, çempion ola bilmədi. Heç finala çıxmağı da bacarmadı. Bu baxımdan Keyn möhtəşəm keçirdiyi mövsümdə son nöqtəni qoya bilmədi. Lakin bütün turnirlərdə göstərdiyi fərdi performansı onu əsas favoritlərdən biri edir.

## Yamal bu il tarixə düşəcək?

19 yaşına qədər həm dünya, həm Avropa çempionluğu əldə etmiş Lamin Yamal indi futbol dünyasının ən prestijli fərdi mükafatından cəmi bir neçə addım aralıdadır. Əslində onun “Qızıl Top”a əsas namizədlərdən olması sensasiya deyil. Çünki Yamal ötən il də ikinci yeri tutmuşdu. Bu dəfə isə onun əlində dünya çempionluğu kimi çox böyük arqument var. “Barselona” ilə La Liqa və İspaniya Super Kubokunu qazanan Yamal 2025/26 mövsümünü 26 qol və 21 assistlə başa vurub. Dünya çempionatında İspaniyanın çempionluğuna gedən yolda da gənc oyunçu əsas simalardan olub. Yamalın problemi yaşla bağlıdır. Məsələ burasındadır ki, bu futbolçu çox gəncdir. Səsvermədə bəzi iştirakçıların “onun üçün hələ tezdir” düşüncəsinə qapılması mümkündür. Üstəlik Yamalın mundialda fərdi performansı gözlənilən qədər dominant olmayıb. İspaniya kuboku qazandı, Yamal komandanın vacib hissəsi oldu, amma turnir onun fərdi performansı ilə yadda qalmadı. “Qızıl Top” səsvermələrində bəzən belə detallar həlledici olur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, dünya çempionatının ən yaxşısı Yamalın komanda yoldaşı Rodri seçilib. Bu, onun özünü “Qızıl top” mübarizəsinə qoşur. Başqa sözlə, İspaniyanın iki əsas namizədi bir-birinin səsini bölə də bilər.

Yamalın əsas üstünlüyü göstərdiyi oyunun rəqəmlərə sığmamasıdır. Ekstravaqant futbolçu oyunun gedişinə təsir edən, izləyiciyə zövq verən, rəqibin planlarını pozan futbolçudur. Mövsümün ən yaxşısı seçilərkən statistika ikinci plana atılsa, Yamala rəqib ola biləcək ad tapmaq çətindir. 19 yaşlı oyunçu “Qızıl top”u qazansa, əfsanəvi Ronaldonu geridə qoyaraq mükafatı əldə edən ən gənc oyunçu kimi tarixə düşəcək.

## Mbappe yenə namizəddir

“Real Madrid”in və Fransa millisinin ulduzu Kilian Mbappe bu dəfə də əsas iddialılardandır. 2025/26 mövsümündə Mbappe 58 qol və 14 assistlə çıxış edib. Madrid təmsilçisində mövcud problemlərə baxmayaraq, fərdi olaraq möhtəşəm il keçirib. Mbappenin əsas üstünlüklərindən biri dünya çempionatındakı çıxışıdır. Fransa mundialda yarımfinala qədər yüksəlib, Mbappe isə 10 qolla turnirin bombardiri olub. Kilianın problemi isə kubok rəfindədir. O, dünya kubokunu qazana bilmədi. “Real Madrid” isə mövsümü böyük komanda uğuru ilə başa vurmadı. Bu, “Qızıl Top” səsvermədə çox ciddi mənfi amildir. Kollektiv nəticələrdə Kilianın əsas rəqiblərindən geridədir.

**İDDİALILARIN SAYI ÇOXDUR**

Ümumilikdə “Qızıl Top”a namizədlərin sayı kifayət qədərdir və onların hər birini keçən mövsüm yaxşı performansla yadda qalıblar. Rodri yenə ən maraqlı namizədlərindən biridir. 2024-cü ildə “Qızıl Top”u qazanan ispaniyalı ağır zədədən sonra əvvəlki səviyyəsindən uzaq görünsə də dünya çempionatında yenidən ön plana çıxdı. O, İspaniyanın çempionluğunda əsas rollardan birini oynadı və turnirin ən yaxşı futbolçusu seçildi. Bu da ”Qızıl Top”un ənənəvi mübahisəsini yenidən gündəmə gətirir: mükafat fərdi performansa görə verilməlidir, yoxsa komanda uğuruna? Rodrinin 73 qollu Keyn və 58 qollu Mbappe ilə rəqabəti göstərir ki, “Qızıl Top”a iddia təkcə statistika ilə ölçülmür. Digər tərəfdən, Lionel Messi, Usman Dembele və Erlinq Haland kimi ulduzların da adları çəkilir. Beləliklə, əsas mübarizədə Keyn, Yamal və Mbappe önə çıxsa da, onlarla rəqabət aparmağa qadir digər oyunçular da var. Sentyabrın 8-də namizədlər açıqlanacaq, oktyabrın 26-da isə Londonda qalib bəlli olacaq.